Mənim İlk

# Müqəddəs Kitab Sözlərim

Uilliam O. Noller və
Kennet N. Teylor



# Mənim İlk Müqəddəs Kitab Sözlərim
# Uşaqlar üçün vəsait

mününasibətilə

tərəfindən

təqdim olunur

tarix

*Bütün dünyada olan uşaqlara
və nəvələrə həsr edilmişdir.*

*Mənim İlk*

# Müqəddəs Kitab

*Sözlərim*

*Uilliam O. Noller və Kennet N. Teylor*

Tindeylin www.tyndale.com mövcud internet saytına baş çəkə bilərsiniz

Originally published in English under the title of *My First Bible Words*.
Published by Tyndale House Publishers.
© 1998 by William O. Noller.
© 2006 for the Azeri edition.
Translated by permission. All rights reserved.

# Mündəricat


*Valideynlərə Məktub*

**Müqəddəs Kitab**

**Allahın kitabı üçün xüsusi adlar**
*Müqəddəs Kitab 2, Kəlam 4, Müqəddəs Yazı 6*

**Müqəddəs Kitab haqqında nəyi bilməliyik?**
*Allah 10, Həqiqət 12, İlahiyyatçılar 14, Tumarlar 16, Əbədi 18*

**Müqəddəs Kitabda nə var?**
*Tarix 22, Əmrlər 24, Vədlər 26, Hekayələr 28, Zəbur 30, Peyğəmbərlik 32, Müjdələr 34, Məktublar 36, Əhdi-Ətiq 38, Əhdi-Cədid 40*

**Allah və insanlar**

**Allah kimdir?**
*Yaradan 44, Səmavi Ata 46*

**Allah haqqında danışan sözlər**
*Yaxşı 50, Sevən 52, Qüdrətli 54, Müqəddəs 56, Müdrik 58, Hər yerdədir 60*

**Allahın yaratdıqları**
*Yer kürəsi 64, Səma 66, Bitkilər 68, Balıqlar 70, Quşlar 72, Heyvanlar 74, İnsanlar 76, Eden Bağı 78, Yaxşı 80*

**Mələklər**

**Pis və yaxşı mələklər**
*Mələklər 84, Şeytan 86*

**İsa və xilas**

**İsa kimdir?**
*İsa 90, Xilaskar 92, Rəbb 94, Müəllim 96*

**İsanın doğuluşu**
*Çobanlar 100, Bet-Lexem 102, Tövlə 104, Axur 106, Müdrik adamlar 108*

**İsanın həyatı**
*Nazaret 112, Sinaqoq 114, Məbəd 116, Yerusəlim 118, Möcüzələr 120, Yaxşı Çoban 122, Şagirdlər 124, Nümunə 126*

**İsanın ölümü**
*Çarmıx 130, Məzar 132*

**İsanın ölümündən sonra**
*Diri 136, Göylər 138, Qayıdış 140*

**Xilas nədir?**
*Xilas 144, Xilas etmək 146, Şər 148, Günah 150, Bağışlamaq 152, İman 154, Əbədi Həyat 156*

**Mən necə Allahın ailəsinin üzvü ola bilərəm?**
*İnanmaq 160, Üzr istəmək 162, Qəbul etmək 164, Etibar 166*

## Müqəddəs Ruh və məsihçi həyatı

**Müqəddəs Ruh kimdir?**
*Müqəddəs Ruh 170, Məsləhətçi 172, Köməkçi 174*

**Müqəddəs Ruhun mənə kömək etdiyini göstərdiyim yollar**
*Sevgi 178, Sevinc 180, Sülh 182, Səbir 184, Xeyirxahlıq 186, Yaxşılıq 188, Mülayimlik 190*

**Olduğum yerdən asılı olmayaraq, Allahı razı salmağın yolları**
*İtaət etmək 194, Dua etmək 196, Həmd etmək 198, Sağ ol 200, Bağışlamaq 202, Kömək 204, Şahid 206*

## İsanın cəmiyyəti

**İsanın cəmiyyəti haqqında sözlər**
*İsanın cəmiyyəti 210, İsanın cəmiyyəti 212, Məsihçilər 214, Pastor 216, Təbliğ 218, Rəhbərlər 220*

**Biz İsanın cəmiyyətində nə edirik?**
*İbadət 224, Dualar 226, Oxumaq 228, İlahilər 230, İanə 232, Dinləmək 234, Öyrənmək 236, Vəftiz 238, Rəbbin Süfrəsi 240, Ünsiyyət 242*

*Sözlərin əlifba sırası ilə siyahısı*

# Əziz Valideyn — həmçinin nənə-babalar, xala və bibilər, əmi və dayılar!

Bu kitab uşağınızı Müqəddəs Kitabın böyük həqiqətləri və Məsihçi imanını izah edən sözlərlə tanış etmək üçün bir yoldur.

Bu Müqəddəs Kitab hekayələri kitabı deyil, lakin hər biri Müqəddəs Kitaba əsaslanan Müqəddəs Kitab sözlərinin kiçik vəsait və təlimləri kitabıdır. Kitab hər bir sözün mənasını və onun uşağınıza necə aid olduğunu izah edir. Bu kitab sadə cümlələrlə yazılıb ki, kiçik uşaqlar onu anlaya bilsinlər və ondan xoşları gəlsin.

Gəlin bu kitab və Müqəddəs Kitab hekayələri kitabı arasındakı fərqi izah edək. Müqəddəs Kitab hekayələri kitabı İsanın Qalileya dənizi üzərində gəzməsi haqqında danışa bilər. Mənim İlk Müqəddəs Kitab sözlərim isə İsanın etdiyinin möcüzə olduğunu və bunu Allahın Oğlu olduğuna görə edə bildiyini izah edir. Müqəddəs Kitab hekayələri kitabı, həmçinin İsanın on iki yaşında olarkən Yerusəlim məbədinə getdiyi haqqında danışa bilər. Mənim İlk Müqəddəs Kitab sözlərim Məbədin Allaha ibadət etmək üçün yer olduğunu deyir. O, həmçinin, ibadətin nə olduğunu deyir və bu uşağınızın Rəbbə ibadət etməli olduğunu izah edir. Beləliklə, bu kiçik kitab həm Müqəddəs Kitab təlimləri, həm də Müqəddəs Kitab sözlərinin tərifləri ilə doludur.

Siz uşaqlarınıza *inanmaq, etibar etmək, bağışlamaq* və *şəhadət etməyin* nə olduğunu anlamağa kömək edə biləcəksiniz. Siz həmçinin bu kitab vasitəsilə Müqəddəs Kitab, Allah, İsa, günah, xilas, Məsihçi həyatı və Rəbbin

Cəmiyyəti kimi mövzuları anlamağa kömək edə bilərsiniz. Həvari Əqidəsinə aid hər şey haqqında burada danışılıb.

Qoy Allahın Müqəddəs Ruhu ruhani həqiqətləri anlamaq yolunda bir çox gənc ürəkləri istiqamətləndirmək üçün bu kitabdan istifadə etsin. Qoy onların düşüncələrini Müqəddəs Kitab sözləri ilə maarifləndirsin.

*Uilliam O. Noller*
*Kennet N. Teylor*

# Müqəddəs Kitab

## Allahın Kitabına verilən xüsusi adlar

# Müqəddəs Kitab

*Müqəddəs Kitab* sözü «kitablar» deməkdir. Müqəddəs Kitabda bir çox kitablar var. Onların hamısı birlikdə bir xüsusi kitab — Allahın kitabını təşkil edir. Müqəddəs Kitabda Allah bizə Özü haqqında danışır. O, bizi çox sevdiyini və bizim necə yaşamalı olduğumuzu deyir.

Biz Müqəddəs Kitabdan Allah və Onun sevgisi haqqında hər şeyi öyrənə bilərik. Allah deyir ki, biz Müqəddəs Kitaba baxaq — onu oxuyaq və Onun haqqında öyrənək (Yeşaya 34:16).

Nə üçün Müqəddəs Kitab xüsusi kitabdır?




**Dua**

*Allah, Sənin xüsusi kitabın olan Müqəddəs Kitab üçün Sənə şükür edirəm. Mən çox şadam ki, Sən kitabında məni sevdiyini deyirsən. Amin.*

# Kəlam

Müqəddəs Kitab Allahın kəlamları ilə doludur. Ona görə də biz Müqəddəs Kitabı Kəlam və ya Allahın Kəlamı adlandırırıq. Müqəddəs Kitabda Allah sizinlə danışır və sizin bilmənizi istədiyi sözləri deyir.

Allah Kəlamında belə bir söz yazılıb: O, «Dar gündə çox kömək edir» (Məzmur 46:1).

Müqəddəs Kitabı götürün. Onu açın və baxın. Əlinizdə tutduğunuz bu kitab Allahın sözləri ilə doludur.



**Dua:**

*Sevimli Allah, Öz Kəlamında, Müqəddəs Kitabda mənə çoxlu gözəl sözlər dediyinə görə Sənə minnətdaram. Amin.*

# Müqəddəs Yazı

Yadınızdadırmı, biz bəzən Müqəddəs Kitabı *Allahın Kəlamı* adlandırırıq? Müqəddəs Kitabın başqa bir *Müqəddəs Yazı* adı da vardır. Biz Müqəddəs Yazı deyəndə, Allahın yazdıqlarını nəzərdə tuturuq. Bütün Müqəddəs Kitab Allah tərəfindən yazılıb.

Müqəddəs Kitab elə bil ki, Allahdan gələn məktubdur. Bu kitab Allahın bütün xalqı üçün yazılıb. O sizin üçün yazılıb.

*Müqəddəs Yazı* nə deməkdir?



**Dua**

*Sevimli Allah, Mən doğrudan da, Müqəddəs Kitab hekayələrini xoşlayıram. Mən çox şadam ki, bütün Müqəddəs Yazını Sən yazmısan. Bu Kitabı mənə yazdığına görə sənə minnətdaram. Amin.*

# Müqəddəs Kitab

## Biz Müqəddəs Kitab haqqında nəyi bilməliyik?

# Allah

Müqəddəs Kitab mənə Allah haqqında danışır. Mən Müqəddəs Kitab hekayələrinə qulaq asıb, Allah haqqında öyrənə bilərəm. Mən Allahın həmişə yaşadığını öyrənə bilərəm. Heç kim ondan əvvəl yaşamamışdır. Müqəddəs Kitab, həmçinin Allahın məni çox sevdiyini, xoşbəxt və yaxşı olmağımı istədiyini deyir.

Mən şadam ki, Müqəddəs Kitab mənə Allah haqqında öyrədir. O, mənim ən yaxın dostum ola bilər, ona görə də mən Onu daha da yaxşı tanımaq istəyirəm.

Müqəddəs Kitabın Allah haqqında dediyi iki şey nədir?



**Dua**

*Sevimli Ata, Müqəddəs Kitabda Sənin*
*haqqında öyrənə bildiyim*
*bütün şeylərə görə Sənə minnətdaram. Amin*

# Həqiqət

Müqəddəs Kitab həqiqətdir. Bu o deməkdir ki, biz onun dediyi hər şeyə inana bilərik. Biz Müqəddəs Kitaba inana bilərik, çünki onu bizə Allah verdi. Allah istəyir ki, biz Müqəddəs Kitaba qulaq asaq, onun həqiqət olduğuna inanaq və ona itaət edək.

Siz kiminsə nə vaxtsa: «Bu həqiqət deyil; mən ona inanmıram» dediyini eşitmisinizmi? Müqəddəs Kitabın dediyi hər söz həqiqətdir. Biz onun dediyi hər sözə inana bilərik.

Hansı kitab yalnız həqiqəti deyir?



**Dua**

*Rəbb Allah, mən çox şadam ki, Müqəddəs Kitabda deyilən hər sözə inana bilərəm. Amin*

# İlahiyyatçılar

Müqəddəs Kitab yazılan dövrdə Müqəddəs Kitab düzəltmək üçün heç bir çap maşını yox idi. Hər bir söz əllə köçürülürdü. Müqəddəs Kitabı köçürən insanlar ilahiyyatçılar adlanırdılar.

Müqəddəs Kitab yazılan dövrdə yaşayan insanlar bilirdilər ki, Allahın sözü vacibdir. Ona görə də ilahiyyatçılar sözbəsöz onu köçürürdülər.

Sizin ananız ilahiyyatçı olaraq bu sözləri sizin üçün köçürə bilər: Allah məni sevir. İlahiyyatçıların etdiyi kimi sizin ananızın Müqəddəs Kitabda olan bütün sözləri köçürməsi nə qədər vaxt alar?



**Dua**

*Əziz Allah, şəxsi Müqəddəs Kitab nüsxəm olduğuna görə Sənə minnətdaram! İsanın ismi ilə. Amin.*

# Tumarlar

Müqəddəs Kitab dövründə yaşayan xalqın kitabları yox idi. Sözlər tumarlar üzərində yazılmışdı. Bu, bürmələnmiş uzun kağızlar idi. İlahiyyatçılar Allahın sözlərini Müqəddəs Kitab tumarları üzərində yazırdılar.

Allah Müqəddəs Kitab tumarlarını qoruyub saxlamağa yardım etdi. Tumarlardan olan bu sözlər indi Müqəddəs Kitabımızda vardır.

Bir kəsdən sizin ən sevimli Müqəddəs Kitab ayənizi kağız parçası üzərində yazmasını xahiş edin. Sonra onu elə bürmələyin ki, tumara bənzəsin.



**Dua**

*Sevimli Ata, Müqəddəs Kitabı sürətlə çap edən maşınlar üçün Sənə minnətdaram. İndi hamının Müqəddəs Kitabı ola bilər. Mənim Müqəddəs Kitabım və ya «Mənim Müqəddəs Kitab sözlərim» kitabım üçün Sənə minnətdaram. Amin*

# Əbədi

Əbədi — həmişə deməkdir. Allahın sözü olan Müqəddəs Kitab əbədi mövcud olacaq. Biz nəyin düzgün olduğunu bilmək üçün həmişə Allahın sözlərinə malik olacağıq. Biz həmişə Allahın sözlərinə malik olacağıq ki, Onun məhəbbətini tanımaqda bizə yardım etsin.

Sizin ulu babalarınız və nənələriniz uşaq olanda Allahın sözləri var idi. Siz böyüyüb uşaqlarınız olanda da Allahın sözü qalacaq. Onun sözləri heç vaxt köhnəlməyəcək.

Allahın sözləri nə vaxta qədər bizdə qalacaq?



**Dua**

*Rəbb, Sənə şükür edirəm, çünki Müqəddəs Kitabda olan sözlərinin əbədi olaraq həqiqi qalacağını vəd edirsən. Amin.*

# Müqəddəs Kitab

## Müqəddəs Kitabda nə var?

# Tarix

Qədimdə insanların necə yaşadığı haqda hekayə *tarix* adlanır. Müqəddəs Kitabda Allahın xalqının tarixi verilib. Allah insanların Onun haqqında öyrənməsini istəyir. Ona görə də Allah bizi nə qədər çox sevdiyi haqqında yazıb. Onu nə qədər sevə bildiyimizi öyrənməyə yardım etmək üçün İbrahim və Sara kimi insanlar haqqında yazıb.

Sizin ata və analarınız uşaq olarkən nə etdikləri haqqında sizə danışa bilərlər. Müqəddəs Kitab qədimdə insanların nə etdiklərini danışır.

Siz Allahın xalqından Onun haqqında nə öyrənə bilərsiniz?



**Dua**

*Sevimli Allah, Müqəddəs Kitab hekayələri üçün Sənə minnətdaram. Mən onların çox vaxt bundan əvvəl baş verdiyini bilirəm, amma Sən onlardan öyrənməyimizi istəyirsən. Amin.*

# Əmrlər

Allah bizim üçün nəyin yaxşı olduğunu bilir, ona görə də, O, bizə əmrlər adlanan xüsusi qanunlar verib. Bu qanunlar Allahı və bir-birimizi necə sevmək haqqında danışır. Məsələn, bizə hər həftə xüsusi bir gün Allaha ibadət etmək tapşırılıb. Eləcə də, biz valideynlərimizə itaət etməliyik. Həmçinin biz nə oğurlamalı, nə də yalan danışmalıyıq.

Allah öz qanunları haqda belə deyir: «Onları öyrənin və onlara dəqiq itaət edin!» (Qanunun Təkrarı 5:1).

Allahın əmrlərindən biri nədir?



**Dua**

*Əziz Ata, xahiş edirəm hətta istəməsəm belə,*
*Sənin qanunlarına itaət etməyə mənə kömək et.*
*Mənim üçün nəyin yaxşı olduğunu bildiyin üçün*
*Sənə minnətdaram. İsanın ismi ilə. Amin.*

# Vədlər

İnsanlar vəd verəndə bu o deməkdir ki, onlar dediklərini edəcəklər. Müqəddəs Kitab Allahın bizə verdiyi vəd haqqında danışır. Əgər biz Allaha itaət etsək, O, bizə kömək etməyi vəd edir. O, bizə lazım olan hər şeyi verməyi vəd edir. O, heç vaxt bizi tərk etməyəcəyini vəd edir.

Bəzən insanlara dediklərini yerinə yetirmək çətin olur. Lakin Allah həmişə sözünün üzərində durur. Müqəddəs Kitab deyir: «Ya Rəbb, verdiyin sözünə görə Quluna xeyirxahlıq etmisən» (Zəbur 119:65).

Kim həmişə sözünün üstündə durur?



**Dua**

*Sevimli Ata, bütün vədlərinin üstündə durduğuna görə Sənə minnətdaram. Amin.*

# Hekayələr

Müqəddəs Kitabda çoxlu hekayələr vardır. Onların hamısı həqiqəti öyrədir. Onların bəziləri Allahın xalqı haqqındadır. Hekayələr xalqın etdiyi xeyirli və şər işlər haqqında danışır. Onlar Allahın öz xalqına qarşı nə qədər mərhəmətli olduğu və onlara necə kömək etdiyi haqqında danışır. Bəzi hekayələr İsa və Onun etdiyi işlər haqqındadır.

Nağıllar maraqlıdır. Müqəddəs Kitabda olan hekayələr isə daha yaxşıdır. Onlar həqiqidir və bizə Allah haqqında öyrədir.

Ən çox sevdiyiniz Müqəddəs Kitab hekayəsini danışın.



**Dua**

*Rəbb, Sənə Nuh, Davud, Ester, İsa və başqa digərləri haqqında həqiqi hekayələrə görə təşəkkür edirəm. Mən Müqəddəs Kitab hekayələrindən öyrənməyi xoşlayıram. Amin.*

# Zəbur

Müqəddəs Kitabda olan kitablardan biri Zəburdur. Zəbur Allah və Onun bizə necə kömək etdiyi haqda şerlərdən və mahnılardan ibarətdir. Zəburda olan bu mahnılara Məzmurlar deyilir. Allahın bu qədər böyük və yaxşı olduğuna görə Ona təşəkkür etməyi bizə xatırladır. Padşah Davud Allahı çox sevirdi və Ona Məzmurlar yazırdı.

Kimsə Müqəddəs Kitabınızdan Məzmur 23-ü oxumaqda sizə kömək etsin. Siz Davudun Allahın onun çobanı olduğunu dediyini öyrənəcəksiniz.

Çoban qoyunların qayğısına qalır. Siz çobanın öz qoyunlarının qayğısına qaldığı kimi Allahın da sizin qayğınıza qaldığı üçün Ona təşəkkür edə bilərsiniz.



## Dua

*Sevimli Allah, mən Səni sevirəm. Sən çox böyük və qüdrətlisən, Sən mənim qayğıma yaxşı qalırsan. Sənə minnətdaram. Amin.*

# Peyğəmbərlik

Peyğəmbərlik gələcəkdə olacaqlar haqqında xəbərdarlıqdır. Yalnız Allah baş verəcəklər haqqında bilir, ona görə də, O, Müqəddəs Kitab dövründə peyğəmbərlər adlanan insanlara peyğəmbərlik xəbərdarlıqları verdi. İsa dünyaya gəlməmişdən çox əvvəllər peyğəmbərlər Müqəddəs Kitabda yazmışdılar ki, O, yer üzündə yaşamağa gəlir!

Biz sabah və ya o birisi gün nə baş verəcəyini bilmirik. Allah isə bilir, ona görə də biz bunun qayğısını çəkməməliyik!

Kim peyğəmbərlərə kömək etdi ki, onlar bu peyğəmbərlik sözlərini yazsınlar?



**Dua**

*Ey göylərdə olan Atamız, bizim nə bilməli olduğumuzu və vaxtında dediyinə görə Sənə minnətdaram! Amin.*

# Müjdələr

Müjdə sözü «xoş xəbər» deməkdir. Müqəddəs Kitabda dörd kitab Müjdə adlanır. Onlar İsa haqqında xoş xəbər verir. Müjdələr dörd insan tərəfindən yazılıb. Onların adları Matta, Mark, Luka və Yəhyadır.

İsa uşaqları sevir. Bu xoş xəbərdir! Siz Müjdələrdən Onun məhəbbəti haqqında oxuya bilərsiniz (Mark 10:13-16).



**Dua**

*Sevimli Allah, Müqəddəs Kitab deyir ki,*
*İsa məni sevir. Bu çox yaxşı xəbərdir!*
*Sənə şükür edirəm. Amin.*

# Məktublar

İnsanlar uzaqda olan dostlarına məktublar yazırlar. Müqəddəs Kitabda İsanı sevən insanlar tərəfindən yazılmış məktublar vardır. Allah onlara nə yazmalı olduqlarını dedi. Onlar uzaqda olan Rəbbin Cəmiyyətlərindən olan adamlara məktublar göndərmişlər. Bunun vasitəsilə həmin insanlar Allahın onların nə etməyini istədiyini bildilər.

Biz məktub alanda, özümüzü xüsusi hiss edirik. Bu o deməkdir ki, kimsə bizə yazmaq üçün vaxt ayırıb. Allah bizi çox xüsusi sayır. Müqəddəs Kitabda oxuya biləcəyimiz məktublar çoxdur.

Bir kəsdən Paulun dostlarına məktubda nə yazdığını sizin üçün oxumasını xahiş edin (Efeslilərə 4:32).



**Dua**

*Sevimli Allah, Müqəddəs Kitabda insanların yazdığı məktublara görə Sənə minnətdaram. Mən şadam ki, Sən bu məktubların Müqəddəs Kitabda olmasını istədin. İsanın ismi ilə dua etdim. Amin.*

# Əhdi-Ətiq

Müqəddəs Kitabın birinci hissəsi Əhdi-Ətiq adlanır. Bu, İsa dünyaya gəlməmişdən *əvvəl* yazılıb. Əhdi-Ətiqdə Nuh, İbrahim, Yusif, Musa, Rut və Padşah Davud kimi insanlar haqqında çoxlu hekayələr vardır.

Biz Əhdi-Ətiqi oxuyanda Allahın xalqının başına gələn bir çox şeylər haqda öyrənirik. Biz, həmçinin məzmurlar və peyğəmbərlik kitabları da oxuyuruq.

Əhdi-Ətiq İsa dünyaya gəlməmişdən əvvəl, yoxsa sonra yazılmışdır?



**Dua**

*Rəbb, bütün Müqəddəs Kitaba görə*
*Sənə minnətdaram. Müqəddəs Kitabdan öyrənə*
*bildiyim hər şeyə görə Sənə şükür edirəm. Amin.*

# Əhdi-Cədid

Müqəddəs Kitabın ikinci hissəsi Əhdi-Cədid adlanır. O, İsanın dünyaya gəlişindən *sonra* yazılıb. Əhdi-Cədiddə İsa haqqında hekayələr vardır. Burada, həmçinin Peter və Yəhya kimi İsanı sevən insanlar haqqında hekayələr vardır. Burada, həmçinin Paul kimi insanlardan məktublar da vardır.

Əhdi-Cədid Müqəddəs Kitabın çox xüsusi bir hissəsidir. Biz buradakı hekayə və məktublardan İsa haqqında hər şeyi öyrənə bilərik.

Əhdi-Cədid İsanın dünyaya gəlişindən əvvəl, yoxsa sonra yazılıb? Əhdi-Ətiq nə vaxt yazılıb?



**Dua**

*Allah, Əhdi-Cədid üçün Sənə təşəkkür edirəm. Mən Müqəddəs Kitabımın bu hissəsindən Sənin Oğlun, İsa haqqında öyrənə bildiyimə görə Sənə minnətdaram. Amin.*

# Allah və İnsanlar

## Allah kimdir?

# Yaradan

Yaradan düzəldir və ya yaradır. Allah göylərin və günəşin, ayın və ulduzların Yaradanıdır. O, yer üzünü və insanları Yaradandır. Yalnız Allah bu qədər gözəl şeylər yarada bilər!

Biz plastilindən nəsə düzəltməyi xoşlayırıq. Allah isə bizim dünyamızı heç nədən yaratdı. O, dünyanı yaradandan sonra ona baxdı və bəyəndi. O gördü dünya gözəldir (Yaradılış 1:18).

Nə üçün Allah Yaradan adlandırılır?



## Dua

*Sevimli Allah, Sən çox xüsusisən. Göydə olan günəş kimi böyük bir şeyi yalnız Sən yarada bilərdin. Eləcə də, Sən onu yerə düşməkdən saxlayırsan. Minnətdaram! Amin.*

# Səmavi Ata

Biz Allahı Səmavi Ata adlandırırıq, çünki O, göylərdə yaşayır. O, nə üçün bizim Atamızdır? Çünki O, bizə həyat verir. O, bizə əbədi davam edən xüsusi bir həyat verir. O, bunu Oğluna, İsaya görə edir. Bizim Səmavi Atamız bizi öz atalarımızdan və analarımızdan çox sevir. O, bizim qayğımıza qalır və bizə kömək edir. O, bizə deyir ki, biz Onun ailəsinin bir hissəsi ola bilərik.

Ailə üzvlərinizin sizi sevdiyini göstərdiyi yollar hansılardır? Sizi ata və analarınızdan çox sevən kimdir?



## Dua

*Sevimli Səmavi Atam, mən bilirəm ki, atam və anam məni çox sevir. Sənin məni onlardan çox sevə bildiyini anlamaq çətindir, amma bu belədir! Minnətdaram! Amin.*

# Allah və İnsanlar

## Allah haqqında danışan sözlər

# Yaxşı

Əgər kimsə pis deyilsə, o yaxşıdır. Yalnız Allah həmişə yaxşıdır. Yalnız Allah həmişə yaxşı və düzgün olanı edir. O, həmişə bizə qarşı mərhəmətlidir. O, ehtiyacımız olan hər şeyi bizə verir. O, bizə zövq almaq üçün gözəl bir dünya verib. O, bizə paltar və yemək verir və bizim ailələrimizi bizə verir.

Allah yaxşı işlər gördüyünə görə, biz bilirik ki, yaxşıdır. Biz həmçinin bilirik ki, «yalnız Allah həqiqətən yaxşıdır» (Mark 10:18). Müqəddəs Kitab bizə belə deyir!

Həmişə yaxşı olan kimdir?



## Dua

*Sevimli Allah, bizə qarşı yaxşı olduğuna görə*
*Sənə minnətdaram. Sən bizə dünyamızı*
*verdin və hər gün burada yaşamağa kömək etdin.*
*Sən yaxşısan. Şükür Sənə! Amin.*

# Sevən

Allah sevəndir. Bu o deməkdir ki, O, səni sevir. O, sizi o qədər sevir ki, İsanı sizin dostunuz olmağa göndərdi. Siz Onu sevdiyinizi deməyi unudanda O, Özünü qəmgin hiss edir, amma yenə də sizi sevir.

Allahın sizi sevdiyini belə görə bilərsiniz: Müqəddəs Kitab deyir ki, Allah məhəbbətdir (1 Yəh. 4:8).

Gəlin, qısaca dua edək. Siz Allaha Onu sevdiyinizi deyəcəksinizmi?



## Dua

*Sevimli Allah, bəzən mən Səni sevdiyimi demәyi unuduram. Mən Sənin kədərlənməyini istəmirəm. Ona görə də mən indi deyirəm «Mən Səni sevirəm, sevimli Allah!». İsanın ismi ilə dua edirəm. Amin.*

# Qüdrətli

Qüdrətli olan kəs nə isə edə bilər. Heç kim Allah qədər qüdrətli deyil. O, milyardlarla ulduzlar yaratdı və onların bir-biri ilə toqquşmasının qarşısını alır. O, fırtınaları dayandırıb, şəkildəki oğlan kimi xəstələri sağalda bilir. O, eyni vaxtda hamının duasını eşidə bilir.

Supermən və Hörümçək Adam qüdrətli görünə bilər, lakin onlar heç həqiqi də deyillər! Allahın qüdrəti həqiqidir! O, hər şey edə bilir.

Allah hansı qüdrətli işləri görə bilər?



**Dua**

*Rəbb, Sənin nə qədər qüdrətli olduğunu xatırlayanda özümü təhlükəsiz hiss edirəm. Nə vaxt qorxsam, Sənin qüdrətini xatırlamağa yardım et. Sənə minnətdaram. Amin.*

# Müqəddəs

Allah müqəddəsdir. Bu o deməkdir ki, O, heç vaxt səhv etmir. O, heç vaxt günah etmir. O, kamildir. Allahdan başqa heç kim müqəddəs deyil. Biz gözlərimizi yumub sakitcə Allahın nə qədər gözəl olduğu haqda düşünməliyik.

Gözlərinizi açandan sonra siz Allahın nə qədər gözəl olduğu haqqında düşünməyə davam edə bilərsiniz. Siz hətta qaçıb tullananda da Onun haqqında düşünə bilərsiniz!

Müqəddəs Allahımız haqqında düşünəndə siz nəyi xatırlayacaqsınız?



**Dua**

*Allah, həmişə düzgün olanı etdiyinə görə Sənə minnətdaram. Sənin kimi kamil olmasam da, məni sevdiyinə görə Sənə təşəkkür edirəm. İsanın ismi ilə. Amin.*

# Müdrik

Müdrik insan çox şeylər haqqında bilir. Yalnız Allah hər şey haqqında bilir. Heç kim Allah qədər müdrik deyil. O, sizin pis, yaxşı etdiyiniz hər şeyi bilir. O, sizin sabah nə edəcəyinizi bilir. O, sizin dualarınıza necə cavab verəcəyini bilir.

Allah hər şeyi bilir, ona görə də həmişə nə etmək lazım gəldiyini bilir. Buna görə biz həmişə özümüzü təhlükəsiz hiss edirik.

Allah çox müdrikdir. Allah şəkildəki oğlanın öz kiçik qardaşına qarşı nə qədər yaxşı davrandığını bilirmi?



**Dua**

*Sevimli Allah, Sən məni tanıyırsan və*
*mənim nəyə ehtiyacım olduğunu bilirsən.*
*Bu qədər müdrik olduğuna görə Sənə*
*minnətdaram. Amin.*

# Hər yerdədir

Allah hər yerdədir. O, sizinlədir. O, dostlarınızın evindədir. O, göylərdədir. O, hər yerdədir. Allah eyni zamanda hər yerdədir.

Biz Allahın necə hər yerdə ola bildiyini həqiqətən anlaya bilmirik. Lakin biz Onun vədinə inana bilərik. O, dedi: «Mən həmişə səninləyəm, gedəcəyin hər yerdə səni qoruyacağam» (Yaradılış 28:15).

Gələn dəfə gizlənpaç oynayanda Allahın hər yerdə sizinlə olduğuna görə Ona şükür edin!



## Dua

*Sevimli Allah, getdiyim hər yerdə mənimlə olduğuna görə Sənə minnətdaram! Məni qoruduğuna görə Sənə şükür edirəm. Amin.*

# Allah və İnsanlar

## Allahın yaratdıqları

# Yer kürəsi

Yer kürəsi hamımızın yaşadığımız yerdir. Yerin digər bir adı «dünya»dır. Allah, Yaradıcı dünyanı heç nədən yaratdı. O, yer üzünə sular verdi. Bəzi yerlərdə isə quru torpaqlar qoydu.

Allah bizim yer kürəsini yaradanda yaxşı planı vardı. O, bilirdi ki, bitkiləri yetişdirmək üçün bizə torpaq lazımdır. O, həmçinin bilirdi ki, bizim içmək və yumaq üçün suya ehtiyacımız vardır. O, hər şeyi bilir!

Yer kürəsini kim yaratdı?



**Dua**

*Rəbb, bizim üçün yaratdığın yer kürəsinə görə Sənə minnətdaram. Bizə yardım et ki, onun qayğısına yaxşı qalaq. Amin.*

# Səma

Biz çöldə olanda və yuxarı baxanda gördüyümüz səmadır. Allah səmanı və səmadakı hər şeyi yaratdı. O, buludları və günəş şüalarını yaratdı. O, ulduzları və ayı yaratdı.

Müqəddəs Kitab deyir ki, insanlar səmadakı günəşə, aya və ulduzlara baxanda Allahın nə qədər gözəl olduğunu bilirlər (Zəbur 19:1–2).

Siz gecə səmaya baxanda, Allahın yaratdığı nələri görə bilirsiniz?



**Dua**

*Sevimli Allah, Sən yaxşısan!*
*Dünyamız üçün yaratdığın böyük mavi səmaya görə Sənə minnətdaram. Mən İsanın ismi ilə dua edirəm. Amin.*

# Bitkilər

Bitkilər Allahın yer kürəsinə qoyduğu torpağın üzərində bitir. Allah müxtəlif növ bitkilər yaradıb. O, böyük ağaclar yaradıb. O, kiçik kollar yaradıb. O, otları yaradıb. O, qızılgül və bənövşə kimi gözəl güllər yaradıb.

Allah bitkiləri yaradanda, elə bil ki, dünyaya böyük yumşaq bir örtük verdi. Bu örtük yaşıl və gözəldir!

Siz Allahın yaratdığı qəşəng bitkilərin bəzilərinin şəklini çəkmək istərdinizmi?



## Dua

*Ata, bizim dünyamızı yaradarkən hər şey haqda düşündüyünə görə Sənə minnətdaram. Bu gün mən Sənə bizim üçün yaratdığın bütün bitkilərə görə şükür edirəm. Amin.*

# Balıqlar

Balıqlar suda üzür. Balıqları Allah yaradıb. O, böyük və kiçik balıqlar yaradıb. Bəziləri uzun, bulanıq çaylarda üzür. Bəziləri böyük dəyirmi göllərdə üzür. Bəziləri isə nəhəng okeanlarda üzür.

Biz suda çimməyi və oynamağı xoşlayırıq. Lakin biz balıqlardan fərqliyik. Allah onların suda yaşamasını planlaşdırmışdı və onlar suda xoşbəxtdirlər.

Qollarınızı işlədərək Allahın yaratdığı balıq kimi üzdüyünüzü təsəvvür edin.



## Dua

*Rəbb, kiçikcik balıqlara və nəhəng balinalara,*
*bütün balıqlara görə Sənə minnətdaram!*
*İsanın ismi ilə. Amin.*

# Quşlar

Quşların lələkləri və qanadları vardır. Allah quşları yaradıb və onlara oxumaq üçün nəğmələr verib. O qarğa, sərçə, qaratoyuq və bülbülləri yaradıb. Allah ördəkləri və qazları yaradıb.

Müqəddəs Kitab deyir ki, Allah quşların qayğısına qalır. Allah onları yedizdirir (Matta 6:26).

Siz şəkildə neçə cür quş görə bilirsiniz?
Hansı rəngləri görürsünüz?
Dinləyin! Siz çöldə oxuyan quşların səsini eşidə bilirsinizmi?



## Dua

*Sevimli Rəbb, quşların və mənim qayğıma qaldığına görə Sənə təşəkkür edirəm. Amin.*

# Heyvanlar

Heyvanlar Allahın yaratdığı torpaqda yaşayır. Heyvanları Allah yaradıb. O, itləri, pişikləri, atları və inəkləri yaradıb. O, yüzlərlə müxtəlif heyvanlar yaradıb.

Allahın heyvanların yaşaması üçün yaratdığı müxtəlif yerlər haqqında düşünün. Meşələrdə yaşayan heyvanların adlarını çəkin. Evinizə yaxın yaşayan heyvanlardan birinin adını çəkin. Neçə cür heyvan adı çəkə bilərsiniz? Neçə cür heyvanın səsini çıxara bilərsiniz?



## Dua

*Sevimli Allah, dünyamız üçün yaratdığın bütün heyvanlara görə Sənə şükür edirəm. Xüsusilə də Sənə (ev heyvanı və ya ən çox sevdiyiniz bir heyvanın adı) görə minnətdaram. Amin.*

# İnsanlar

Kişilər, qadınlar və uşaqlar insandırlar. İnsanları Allah yaradıb. Allahın yaratdığı ilk insanlar Adəm adlı bir kişi və Həvva adlı bir qadın idi. O, onları elə yaratdı ki, Onunla danışa bilsinlər və sevinsinlər.

Allah yaratdığı bütün insanları sevir. Bu o deməkdir ki, O, səni və məni sevir. Allah bizim Ona itaət etməyimizi istəyir ki, bizi dostları adlandıra bilsin (Yəhya 15:14).

Allahın yaratdığı ilk insanlar kim idi?



**Dua**

*Sevimli Ata, mən şadam ki, Sən insanları yaratmağı qərara aldın.* ***Məni*** *yaratdığına görə Sənə minnətdaram! Amin.*

# Eden Bağı

Allah Adəm və Həvvaya yaşamaq üçün Eden Bağı adlanan gözəl bir yer verdi. Allah dedi ki, Bağın qayğısına qalsınlar və ondan zövq alsınlar. Lakin Allah onlara tapşırmışdı ki, oradakı meyvələrdən birini yeməsinlər. Adəm və Həvva buna baxmayaraq, onu yedilər. Allah onları itaət etmədiklərinə görə cəzalandırmalı idi. Cəzalarının bir hissəsi onların bağdan qovulması idi. Onlar artıq Eden Bağında yaşaya bilmədilər.

Adəm və Həvva Allaha qarşı itaətsizlik göstərənə qədər bu Bağ xoşbəxt yer idi. Sonra onlar kədər və qorxu hiss etməyə başladılar.

Adəm və Həvva Allaha qarşı itaətsizlik etməmişdən əvvəl harada yaşayırdılar?



## Dua

*Sevimli Allah, kaş ki, həmişə Sənə itaət edəydim. Amma bilirəm ki, etmirəm. Həmişə Sənin istədiyini etmək üçün mənə kömək et. Amin.*

# Yaxşı

Allah yaxşıdır. Allahın yaratdığı hər şey də yaxşıdır. Bu o deməkdir ki, pis bir şey yox idi. Dünya yaxşı idi və Allahın dünyaya qoyduğu hər şey yaxşı idi. Lakin Allahın yaratdığı insanlar pis işlər görməyə başladılar. Bu şəkildə Qabil öz qardaşına qarşı hirslənib. Bu yaxşı deyil. Siz hansı yaxşı işlər görmüsünüz? Pis iş nə deməkdir? Siz yaxşı olmağınız üçün Allahdan kömək istəyə bilərsiniz. Bu Onun xoşuna gələr.

Şəkildə nə baş verir? Bu doğrudur, yoxsa səhvdir?



**Dua**

*Səmavi Ata, yaxşı olduğuna görə*
*Sənə minnətdaram. Səni məmnun edən yaxşı işlər görməkdə mənə kömək etdiyin üçün Sənə şükür edirəm. Amin.*

# Mələklər

## Pis və yaxşı mələklər

# Mələklər

Allah mələklər adlanan çoxlu xüsusi köməkçilər yaratmışdı. Allah Danieli qorumaq üçün şirlərin yuvasına mələk göndərmişdi. İsanın anadan olduğunu demək üçün çobanların yanına mələklər gəlmişdi. Biz mələkləri görə bilmirik, lakin Allah onları göndərə bilər ki, bizə kömək etsinlər. Ola bilər ki, indi burada mələklər var və sizə gülümsəyirlər.

Bəzən biz bilməsək də, Allah bizi qorumaq üçün mələklər göndərir.

Allah nə üçün şirlərin yuvasına mələk göndərdi?



**Dua**

*Sevimli Allah, Sənin mələklərinə görə Sənə minnətdaram. Bizə qarşı xeyirxahlıqlarına görə Sənə şükür edirəm. Amin.*

# Şeytan

Şeytan adlanan, ən böyük mələklərdən biri Allaha qarşı çıxdı. Şeytanın başqa bir adı iblisdir. O, Eden Bağında gözəl ilan görkəmi aldı. O, Adəm və Həvvanı Allaha qarşı itaətsizlik etdirdi.

Şeytan Allaha qarşı çıxanda bəzi digər mələklər də ona qoşuldular. Bu pis mələklər cinlər adlanırlar. Şeytan və onun cinləri bizi də Allaha qarşı qaldırmaq istəyirlər. Allahdan diləməliyik ki, bizi şeytandan qorusun. Onda şeytan bizi səhv işlər görməyə vadar edə bilməz.

Şeytan pis mələkdir, yoxsa yaxşı?



**Dua**

*Sevimli Rəbb, şeytandan və onun pis fikirlərindən üz döndərməyə mənə kömək et. Sevimli Allahım mən Səni sevirəm və Sənə itaət etmək istəyirəm. İsanın ismi ilə. Amin.*

# İsa və Xilas

## İsa kimdir?

# İsa

İsa Allahın yeganə Oğludur. Çox əvvəllər İsa yer üzünə yaşamağa gəlmişdi. O, göylərdən gəlmişdi. İsanın anası Məryəm idi və Yusif bir ata kimi Onun qayğısına qalırdı. Amma İsanın həqiqi atası Allahdır. İsa Allahın Oğludur.

Siz İsanın bir müddət yer üzündə yaşadığına görə sevinmirsinizmi? Biz Müqəddəs Kitabdan Onun haqqında çox şey öyrənə bilərik. İndi O, yenidən göylərdə yaşayır və bizim dualarımızı eşidir!

Allahın Oğlunun adı nədir?



**Dua**

*Sevimli Allah, bizimlə Öz yeganə Oğlun İsanı bölüşdüyünə görə Sənə minnətdaram. Onun adı ilə dua edirik. Amin.*

# Xilaskar

*İsa* adı «Xilaskar» deməkdir. Xilaskar insanları xilas edir. İsa gördü ki, insanlar Allaha itaət etmir. Ona görə də İsa gəldi ki, bizi Allahın cəzasından xilas etsin. İsa bizi elə sevir ki, günahlarımızı götürmək üçün çarmıxda öldü və bizim Xilaskarımız oldu.

İsanın bizim Xilaskarımız kimi gəldiyi gözəl deyilmi? Müqəddəs Kitab bizə deyir: «Rəbb İsaya iman et və xilas olacaqsan» (Həvarilərin İşləri 16:31).

Nə üçün İsa bizim xilaskarımız olmaq istəyir?



**Dua**

*Sevimli Allah, bilirəm ki, səhv işlər görmüşəm. İsanı Xilaskarım olmağa göndərdiyin üçün Sənə minnətdaram. Onun adı ilə dua edirəm. Amin.*

# Rəbb

Rəbb başqa insanların məsuliyyətini daşıyır. İsa bizim Rəbbimizdir. O bizi istiqamətləndirmək və yardım etmək istəyir. O sevən və xeyirxah Rəbdir. Əgər sən Ona itaət etsən, O səni xoşbəxt edə bilər. Həmişə düz işlər edərək Rəbbinizə itaət edin.

Siz böyüyən zaman ata-analarınız sizin bələdçiləriniz olur. Allah onlara bu işi tapşırıb. *Onların* bələdçisi sizcə kimdir? İsa! İsa onlara — və sizə görə məsuliyyət daşıyır!

Sizin məsuliyyətinizi kim daşıyır? (Sizin Rəbbiniz kimdir?)



**Dua**

*Rəbb İsa, məsuliyyət daşıdığına görə Sənə təşəkkür edirəm. Mənim üçün nəyin yaxşı olduğunu bildiyinə görə Sənə minnətdaram. Sənə itaət etmək üçün mənə kömək et. Amin.*

# Müəllim

Müəllimlər bizə öyrənməyə kömək edir. Onlar bildiklərini bizə öyrədir. İsa müəllimlər arasında ən yaxşısıdır. O, hər şeyi bilir! Biz İsanın danışdığı Müqəddəs Kitab hekayələrini dinləyərək Ondan öyrənirik.

Siz İsanın danışdığı hekayələrdən birini dinləmək istərdinizmi? Analarınızdan və ya atalarınızdan sizə Müqəddəs Kitabdan bu hekayələrdən birini oxumasını xahiş edin: Xeyirxah Samariyalı (Luka 10:30–37) və ya İtmiş quzu (Luka 15:3–7).



## Dua

*Göylərdə olan Atamız, bizə necə yaşamağı öyrətmək üçün İsanı göndərdiyinə görə Sənə minnətdaram. Amin.*

# İsa və Xilas

## İsanın doğuluşu

# Çobanlar

Qoyunları otaran adamlara çoban deyilir. İsanın anadan olduğu gecə tarlada çobanlar vardı. Onlar öz qoyunlarını otarırdılar. Mələklər göydə göründü və onlara Allahın Oğlunun dünyaya gəldiyini dedilər, çobanlar da çox xoşbəxt oldular.

Çobanlar çox vaxt öz qoyunları ilə sakit gecələr keçirirdilər. İsanın dünyaya gəldiyi gecə yəqin ki, onların həyatında ən həyəcanlı gecə idi!

Sizcə mələklər İsanın dünyaya gəldiyini deyəndə çobanlar nə hiss edirdilər?



## Dua

*Sevimli Allah, İsanın dünyaya gəldiyi gecə çobanlar həyəcanlı olduğu kimi mənə də İsaya görə həyəcanlı olmağa kömək et. Amin.*

# Bet-Lexem

Mələklər çobanlara dedilər ki, İsa Bet-Lexem şəhərində dünyaya gəlib. Çobanlar şəhərə qaçdılar ki, körpəni tapsınlar.

Əhdi-Ətiq peyğəmbəri deyirdi ki, İsa Bet-Lexemdə dünyaya gələcək (Mikeya 5:2). O, İsa gəlməmişdən çox əvvəl bu haqda demişdi.

İsanın doğulduğu şəhərin adını deyə bilərsinizmi?



## Dua

*Sevimli Allah, peyğəmbərin dediyi kimi*
*Öz Oğlun İsanı Bet-Lexemdə dünyaya gəlməyə*
*göndərdiyin üçün Sənə minnətdaram. Amin.*

# Tövlə

İsa tövlədə doğulmuşdu. Bu yer inəklərin və qoyunların yaşadığı mərək kimi idi. Allahın Oğlu nə qəribə yerdə doğulub! İsa göyləri tərk etdi ki, tövlədə bir körpə kimi doğulsun.

Tövlə gözəl bir yer deyildi. Hər bir kəs İsanı orada görməyə gedə bilərdi. Allah belə istəmişdi. O, İsanı göndərdi ki, O, böyüsün və hamıya kömək edə bilsin.

Tövlə nədir?



**Dua**

*Sevimli Allah, Sənə minnətdaram ki,*
*Oğlun İsa tövlədə doğuldu. Mən şadam ki, O,*
*hamının dostu olmaq istəyir. Amin.*

# Axur

Körpə İsanın beşiyi yox idi. O, axurda yatırdı. Bu, inək və qoyunların içindəki otu yediyi bir qutudur. Məryəm və Yusif yəqin ki, körpə İsaya yumşaq çarpayı hazırlamaq üçün axuru otla doldurdular.

Çox körpələr içərisi oyuncaqla doldurulmuş çarpayılarda yatırlar. Lakin körpə İsa inəklərin və eşşəklərin içindən ot yediyi qutuda yatırdı. Allahın Oğlu üçün nə qədər qəribə çarpayıdır!

Siz İsanın doğulması haqqında mahnı bilirsinizmi? İndi oxumaq istərdinizmi?



**Dua**

*Sevimli Allah, körpə İsaya yatmaq üçün xüsusi yer verdiyinə görə Sənə minnətdaram. Mənim də qayğıma qaldığına görə Sənə minnətdaram. İsanın ismi ilə. Amin.*

# Müdrik adamlar

Müdrik olan adam çox şey bilir. İsa doğulanda uzaqlardan olan bir neçə müdrik adam bir ulduz gördü. Onlar bilirdilər ki, bu xüsusi ulduzdur. Müdrik adamlar səhranı keçib gəldilər. Onlar yəqin ki, dəvələrə minib gəlmişdilər. Onlar ulduzun ardınca getdilər və İsanı tapdılar! Onlar Ona hədiyyələr verdilər.

İnsanlar çox vaxt uzaq yollar gedirlər ki, ailədə olan yeni uşağı görsünlər. Lakin İsa kimi xüsusi uşaq heç vaxt olmayıb. Müdrik adamlar bunu bilirdilər. Onlar Ona səcdə qıldılar (Matta 2:11).

Müdrik insanlar nələr etdilər?



**Dua**

*Sevimli Allah, Müqəddəs Kitabdakı
həmin müdrik adamlar İsanın Padşah olduğunu
bilirdilər. Mənə də müdrik olmağa kömək et.
İsanı, Allahın Oğlunu öz Xilaskarım və Padşahım
kimi qəbul etməyə kömək et. Amin*

# İsa və Xilas

## İsanın həyatı

# Nazaret

İsa Nazaret şəhərində böyümüşdü. O, anası Məryəm və onun əri Yusif ilə yaşayırdı. Yusif dülgər idi, ona görə də İsaya taxtadan əşyalar düzəltməyi öyrətmişdi. İsa yəqin ki, Nazaret şəhərində məktəbə getmişdi.

İsa körpə idi; sonra o iməklədi, gəzdi, qaçdı və sizin kimi böyüdü.

İsanın atası göylərdə olan Allahdır. Bəs İsa Nazaretdə böyüyəndə onun qayğısına kim qalırdı?



## Dua

*Rəbb, Sənə İsanın ailəsi və evi üçün təşəkkür edirəm. Mənim ailəm və mənə ev verdiyin üçün də Sənə minnətdaram. İsanın ismi ilə. Amin.*

# Sinaqoq

Sinaqoq Rəbbin Cəmiyyətinin binasına oxşayırdı. O, həmçinin məktəb kimi idi. İsa oraya dua etməyə gedirdi. Həmçinin o, yəqin ki, Nazaret şəhərindəki sinaqoqda oxumağı da öyrənirdi.

Biz Rəbbin Cəmiyyətinə gedirik və həmçinin məktəbə də gedirik. Biz dua edirik və çox şeylər öyrənirik. Biz indi burada da dua edə bilərik.

İsa sinaqoqda nə edirdi?



**Dua**

*Sevimli Allah, mən Sənə minnətdaram ki,*
*Rəbbin Cəmiyyətində Sənə ibadət edə bilirəm.*
*Pastora qulaq asmağa və Sənin haqqında*
*öyrənməyə mənə kömək et. Amin.*

# Məbəd

Məbəd böyük, gözəl Rəbbin Cəmiyyətinin binasına bənzəyirdi. Bu Allaha ibadət etmək üçün xüsusi bir yer idi. Allahı sevən hər bir kəs ən azı ildə bir dəfə məbədə gedirdi. İsanın on iki yaşı olanda O, ilk dəfə Məryəm və Yusiflə Məbədə getdi.

Allahı sevən insanlar etdikləri hərəkətləri ilə bunu göstərmək istəyirlər. İsa və Onun ailəsi Allahı sevdiklərini göstərmək üçün böyük Məbədə getdilər.

İsa ilk dəfə nə vaxt Məbədə getdi? Siz Allaha məhəbbətinizi göstərmək üçün hara gedirsiniz?



**Dua**

*Rəbb, başqalarına etdiyim hərəkətlər və getdiyim yerlər vasitəsilə Səni sevdiyimi göstərmək üçün mənə yardım et. Mən bunu İsanın ismi ilə diləyirəm. Amin.*

# Yerusəlim

Yerusəlim böyük şəhər idi. Bu vacib şəhər idi. Bu, Məbədin yerləşdiyi şəhər idi. Bir çox müxtəlif yerlərdən Allahın xalqı Yerusəlimə gəlirdi. Onlar burada Allaha ibadət etmək üçün gəlirdilər. İsa Yerusəlimə dəfələrlə getmişdi.

Yerusəlimdə maraqlı şeylər baş verirdi. Müqəddəs Kitab deyir: «İsanın valideynləri hər il Pasxa Festivalı üçün Yerusəlimə gedirdilər» (Luka 2:41).

Allahın Məbədinin yerləşdiyi şəhəri deyə bilərsinizmi?



**Dua**

*Rəbb, harada yaşasam və haraya getsəm mәni sevdiyinə görə Sənə minnətdaram! Mən Səni sevirəm, Rəbb. Amin.*

# Möcüzələr

İsa Allahın Oğlu olduğuna görə gözəl işlər görürdü. Biz onları möcüzələr adlandırırıq. İsa xəstə insana sadəcə «Sağal» deyərək onu sağaldırdı. O, kor insanın gözlərini açdı. O, güclü fırtınaya dayanmasını dedi və o dayandı. Allah Öz Oğluna, İsaya səlahiyyət verdi ki, bu möcüzələri etsin.

Müqəddəs Kitab bizə İsanın möcüzələri haqqında danışır. Müqəddəs Kitabda danışılan şeylər həqiqətən baş verib. Ona görə də İsanın möcüzələri həqiqidir!

İsanın etdiyi bəzi möcüzələr hansılardır?



## Dua

*İsa, Allahın Oğlu olduğuna görə edə bildiyin gözəl şeylərə görə Sənə minnətdaram. Sənin üçün heç bir şey çətin deyil! Mən Səni sevirəm. Amin.*

# Yaxşı Çoban

İsa dedi: «Mən yaxşı çobanam». Çobanlar qoyunlarına yemək üçün ot tapmaqda və içmək üçün su tapmaqda kömək edirlər. Onlar öz quzularını vəhşi heyvanlardan qoruyurlar. İsa bizim yaxşı çobanımızdır. O, bizə yemək tapmağa kömək edir və bizi zərərli şeylərdən qoruyur.

Ananızla bir yerə gedəndə istəyirsiniz ki, o, yanınızda olsun. Sizin yaxşı çobanınız həmişə yanınızdadır.

Elə bir oyun oynayın ki, orada biriniz çoban, digəriniz isə sizi axtarıb tapan quzu olsun.



**Dua**

*İsa, həmişə mənim qayğıma qaldığına görə Sənə minnətdaram. Sən məni kiçik quzunun öz çobanı ilə olduğu kimi təhlükəsiz və sevimli hiss etdirirsən. Amin.*

# Şagirdlər

İsa Özünə on iki adam seçdi ki, onun xüsusi köməkçiləri olsunlar. Onlar İsanın xüsusi şagirdləri adlanırdılar. Siz onlardan bir neçəsinin adlarını bəlkə eşitmişsiniz: Peter, Andrey, Yaqub, Yəhya, Matta. Şagirdlər İsanın ardınca gedirdilər və ondan öyrənirdilər. Sonra onlar başqalarına İsa haqqında danışdılar.

Siz İsanın ardınca şagirdlərin getdiyi kimi eyni yolla gedə bilməzsiniz. Lakin siz Müqəddəs Kitabı dinləyərək Ondan öyrənə bilərsiniz. Siz başqalarına İsa haqqında danışaraq Ona kömək edə bilərsiniz.

İsanın şagirdləri nə edirdilər?



**Dua**

*Sevimli İsa, mən Sənin dostun olmaq istəyirəm. Səndən öyrənmək və başqalarına Sənin haqqında demək üçün mənə yardım et. Amin.*

# Nümunə

İsa bizə nümunə olmaq üçün gəldi. Bu o deməkdir ki, İsa bizə necə yaşamalı olduğumuzu göstərməyə gəldi. O, bizim nümunəmizdir. Müqəddəs Kitab bizə deyir ki, İsa insanları sevir və onlara kömək edir. O, insanların qayğısına qalır və onlara qarşı mərhəmətlidir. Biz İsa kimi olmağa çalışmalıyıq.

Siz hər hansı bir dərslər aldınızmı — üzgüçülük və ya piano dərsləri? Müəllim sizə nə etməli olduğunuzu göstərir və siz müəlliminizin nümunəsini təkrar edirsiniz. İsa da bizim müəllimimizdir. O bizim nümunəmizdir.

Biz İsanın nümunəsini necə təqlid edə bilərik?



**Dua**

*Sevimli İsa, bu dünyaya gəldiyinə və bizə yaşamağı öyrətdiyinə görə Sənə təşəkkür edirəm. İnsanları Sənin kimi sevməyi öyrət. Amin.*

# İsa və Xilas

## İsanın ölümü

# Çarmıx

Bəzi pis insanlar İsanı iki taxta parçasından düzəldilən çarmıxa mıxladılar. İsa onlara icazə verdi ki bunu etsinlər. O, çarmıxda öldü ki, bizi günahlarımızdan xilas etsin. İsa heç vaxt səhv etməyib. Lakin O, sizin günahlarınızı və dünyada olan bütün insanların günahlarını Öz üzərinə götürmək üçün öldü.

İnsanlar öləndə kədərlənirik. Siz elə bir insan tanıyırsınızmı ki, artıq ölüb? İsa əzab çəkəndə və çarmıxda öləndə insanlar ağlayırdılar. Allah, Onun Atası bizim günahlarımıza görə Onun ölməsinə icazə verdi, çünki bizi çox sevir.

İsa nə üçün çarmıxda öldü?




**Dua**

*Sevimli İsa, Sənin çarmıxda öldüyünü düşünmək məni kədərləndirir. Sən məni elə sevirsən ki, günahlarımı üzərinə götürdün və mən buna görə şadam. Amin.*

# Məzar

Bəzən insanlar öləndən sonra onları məzara qoyurlar. Müqəddəs Kitab dövründə məzar adətən təpədə yerləşən bir mağara və ya oyuq idi. İsa çarmıxda öləndən sonra kişilər Onun bədənini məzara qoydular.

İsanın dostları Onun bədəninə ədviyyatlar sürtdülər (Yəhya 19:40). Sonra Onu məzara qoydular. Sonra məzarın qarşısına böyük bir daş yuvarladılar. Lakin İsa yenidən diriləndən sonra, hətta böyük bir daş belə Onu içəridə saxlaya bilmədi!

İsa öləndən sonra dostları Onun bədənini haraya qoydular?



**Dua**

*Sevimli Allah, Mən şadam ki,*
*İsanın bədənini məzara qoyulmuş görmədim.*
*Mən şadam ki, hekayənin xoşbəxt sonluğunu biliram. Allah yenidən İsanı diriltdi! Amin.*

# İsa və Xilas

## İsanın ölümündən sonra

# Diri

İsanın ölməsi pis xəbərdir. Yaxşı xəbər odur ki, İsa ölü qalmadı. Üçüncü gün Allah İsanı yenidən diriltdi. O, dostları ilə gəzdi, danışdı və yemək yedi. Biz də Onun dostları ola bilərik! İsa yaşayır! O, diridir! O, göylərdə Allahla, Atası ilə birlikdədir.

İsanın bədəninin artıq məzarda olmadığını bilmək sevindirici deyilmi? Mələklər dedi: «O, burada deyil! O, ölümdən dirildi!» (Luka 24:6).

İsa diri olduğuna görə siz xoşbəxtsinizmi? Bunu ilahi oxuyaraq və alqışlayaraq göstərin.



**Dua**

*Sevimli İsa, mən Sənin həyata qayıtdığına görə minnətdaram. Mən Səni sevirəm, İsa. Amin.*

# Göylər

İsa ölüb dirildikdən sonra, göylərə qayıtdı. Bu çox gözəl yerdir. Orada heç kim kədərlənmir, xəstələnmir və ya ölmür. İsa göylərdə Onu sevənlər üçün yer hazırlayır. Əgər siz İsanı sevirsinizsə, siz bir gün Onunla birlikdə olacaqsınız.

Olduğunuz əyləncəli yerlərin adını çəkin. Göylər bu yerlərin hamısından yaxşıdır! Orada heç kim heç vaxt ağlamır. Hamı orada həmişə xoşbəxtdir!

Göylərin nə qədər gözəl olduğunu düşündüyünüzü göstərmək üçün şəkil çəkin.



**Dua**

*Sevimli Rəbb, göyləri bizim üçün hazırladığına görə Sənə təşəkkür edirəm. Səninlə əbədi yaşamaq üçün nə gözəl yerdir! Amin.*

# Qayıdış

Qayıtmaq geri gəlmək deməkdir. Bir gün İsa göylərdəki evini tərk edib yer üzünə gələcək. O, bütün dostlarını bir yerə toplayacaq. O, bizi Özü ilə göylərdə yaşamağa aparacaq.

Biz bilirik ki, bu həqiqətdir, çünki İsa xüsusi vəd verib: «Hər şey hazır olduqdan sonra gəlib sizi aparacağam ki, Mən olduğum yerdə həmişə Mənimlə olasınız» (Yəhya 14:3). Biz bunun nə vaxt olacağını bilmirik. Ona görə də biz İsanı sevib hazır olmalıyıq!

İsa qayıdanda nə edəcək?



## Dua

*Sevimli Rəbb İsa, Mən xoşbəxtəm, çünki Sənin qayıdacağını bilirəm! Həmişə Səni sevməyə və hazır olmağa kömək et. Amin.*

# İsa və Xilas

## Xilas nədir?

# Xilas

Xilas o deməkdir ki, bizim günahlarımız bağışlanıb. İsa çarmıxda ölüb ki, biz xilas olaq. Xilas hədiyyəsi bizi Allahın ailəsinin bir üzvü edir. Biz indi və əbədiyyən Allahın övladları oluruq.

Ad gününüzdə və ya Milad bayramında hədiyyələri açmaq əyləncəlidir. Lakin ən gözəl hədiyyə budur: siz iman edəndə Allah sizi xilas edir. «Bu Allahdan hədiyyədir» (Efeslilərə 2:8).

Biz xilas hədiyyəsini qəbul edəndə nə baş verdiyini deyə bilərsinizmi?



## Dua

*Sevimli Allah, xilas nə gözəl hədiyyədir!*
*Bunu hamıya verdiyinə görə Sənə minnətdaram.*
*İsanın ismi ilə. Amin.*

# Xilas etmək

Allah bizi elə sevir ki, Öz Oğlu İsanı göylərdən göndərdi. İsa gəldi ki, bizi günahdan xilas etsin. Bizim günahlarımız bizi kamil Allahdan uzaqlaşdırır. Biz heç vaxt xilas olmaq üçün kifayət qədər pul ödəyə bilmərik. Biz heç vaxt xilas olmaq üçün kifayət qədər yaxşı əməllər edə bilməzdik. Ona görə də Allah bizi xilas etmək üçün İsanı əvəzsiz hədiyyə olaraq verdi.

Kimsə bizi vəhşi itdən və ya suda batarkən qurtarmağa gələndə biz sevinirik. Allahın İsanı günahlarımızdan xilas etmək üçün göndərməsi nə qədər gözəldir!

Allah nə üçün İsanı bizi xilas etməyə göndərdi?



**Dua**

*Sevimli Allah, məni günahlarımın cəzasından xilas etmək üçün İsanı göndərdiyinə görə Sənə şükür edirəm. İsanı tanımaq nə qədər gözəldir! Amin.*

# Şər

Allah yaxşıdır, şeytan isə şərdir. Şeytan çox şər, yəni pis işlər edir. O, insanların şər əməllər etməsini istəyir. Əgər Allah sizin nə isə etməyinizi istəmirsə, siz onu etməməlisiniz. Bu pis bir işdir.

Allah bilir ki, biz göylərə gedənə qədər şər əməllər davam edəcək. Ona görə də O, Müqəddəs Kitabda bizə deyir ki, «bütün bu şər əməllərdən qaçın» (1 Timotey 6:11).

Hər səhər və hər axşam siz Allahdan nəyin düz, nəyin səhv olduğunu bilməkdə sizə kömək etməsini xahiş edin. O, kömək edəcək! Allah sizə Onu məmnun salan işlər etməyə kömək edəcək.



**Dua**

*Sevimli Allah, şərdən qaçmaq üçün və mәndәn istәdiyin yaxşı әmәllәri etmәk üçün mәnә kömәk et. Mәn İsanın ismi ilә dua etdim. Amin.*

# Günah

Biz səhv və ya şər edəndə bu günah adlanır. Biz günah edəndə Allaha itaətsizlik edirik. Adəm və Həvva ilk insanlar idi. Onlar Allaha itaət etmədilər. Onlar günah etdilər. Hamı pis hərəkətlər edir. Bu pis hərəkətlər  günah adlanır. Bu Allahı çox kədərləndirir.

Müqəddəs Kitab ayələrini yadda saxlamaq bizə günah işlətməməyə kömək edir (Zəbur 119:11). Necə? Onlar bizə Allahın nə istədiyini bilməyə kömək edir. Bu da bizə Ona itaət etməyə yardım edir.

Biz səhv işlər görəndə, bu Allahı kədərləndirirmi? Onu nə sevindirir?



**Dua**

*Sevimli Allah, səhv işlər görəndə*
*Səni kədərləndirdiyimə görə məni bağışla. Xahiş edirəm günahlarımı bağışla. Mənə Sənə itaət etmək istəməyə və səni sevindirməyə kömək et. İsanın ismi ilə dua etdim. Amin.*

# Bağışlamaq

Allah Ona yaxınlaşan hər kəsi bağışlamağa hazırdır. Bu o deməkdir ki, Allah bizim etdiyimiz hər pis əməli bağışlayır və bizə qəzəblənmir. Əksinə, O bizi sevir və bizə kömək edir. İsa bizim üçün öldüyünə görə Allah bizi bağışlayır.

Müqəddəs Kitab deyir ki, Allah bizim bütün günahlarımızı bağışlayır (Zəbur 103:3).

Siz səhv əməllər edəndə Allah sizi bağışlayırmı? Ona təşəkkür edin!



**Dua**

*Sevimli Allah, səhvlər edəndə məni bağışladığın üçün Sənə minnətdaram. Xahiş edirəm, Sənə getdikcə daha çox itaət etmək üçün mənə kömək et. İsanın ismi ilə. Amin.*

# İman

Allah istəyir ki, bizim imanımız olsun. Əgər bizim İsaya imanımız olsa, biz Onun hər dediyi sözə inanarıq. Biz bilirik ki, O, Allahın Oğludur, O, bizi sevir və bizi xilas etmək üçün ölüb. Allah Müqəddəs Kitabda dediyi hər sözə inanmaq üçün bizə iman verir.

Bəlkə də siz həmişə dediyini edən bir insan tanıyırsınız. Əgər o sizə deyirsə ki, siz hündür yerdən atılanda sizi tutacaq, ona inanırsınız. Sizin ona imanınız var. Hamının İsaya imanı olmalıdır.

Allah İsaya iman etməyinizi istəyirmi?



**Dua**

*Sevimli Allah, İsaya olan iman Səndən hədiyyə olduğuna görə minnətdaram. Mən yalnız onu Səndən diləməliyəm. Mən indi onu Səndən istəyirəm. İsanın ismi ilə dua edirəm. Amin.*

# Əbədi Həyat

Əbədi sözü «həmişəlik» deməkdir. İsa istəyir ki, sizin əbədi həyatınız olsun. O istəyir ki, sizin göylərdə həmişə davam edən gözəl həyatınız olsun. Hətta öləndən sonra belə, göylərdə əbədi yaşaya bilərsiniz. İsaya görə siz əbədi həyata malik ola bilərsiniz.

Ad günləri arasında tam bir il olur. Hal-hazırda bir il çox uzun müddət kimi görünür. Lakin biz İsa ilə həmişəlik yaşaya bilərik. Bu bizim saya bilmədiyimiz qədər çox illərdir!

Əbədi həyat nə qədər sürür?



**Dua**

*Sevimli Allah, göylərdə həmişəlik yaşamaq gözəl olacaq. Biz İsa ilə birlikdə olacağıq! Sənə şükür edirəm! Amin.*

# İsa və Xilas

## Mən necə Allahın ailəsinin üzvü ola bilərəm?

# İnanmaq

Mən İsaya inanmalıyam. Əgər mən nəyəsə inanıramsa, demək onun doğru olduğunu bilirəm. Allah istəyir ki, biz İsanın Onun Oğlu olduğuna inanaq. O istəyir ki, İsanın mənim günahlarım üçün öldüyünü bilim. Mən bunların doğru olduğuna inana bilər və İsanın mənim günahlarımı üzərimdən götürəcəyinə etibar edə bilərəm. Sonra mən Allahın ailəsinin üzvü olacağam və Onun üçün yaşayacağam.

Şəkildəki oğlan həyəcanlıdır. Müəllim dedi ki, İsa hamı üçün ölüb. Həmin oğlan əlini qaldırıb deyir: «Mən buna inanıram!»

Allah sizdən nəyə inanmağınızı istəyir?



**Dua**

*Allahım, Sənin Oğlun, İsa üçün Sənə minnətdaram. Mən bütün qəlbimlə İsaya inanıram. Amin.*

# Üzr istəmək

Mən səhv əməllərimə görə üzr istəməliyəm. Hamımız Allahın istəmədiyi əməlləri edirik. Bu Allahı kədərləndirir. O, hamımızdan: «Allah, etdiyim bütün səhvlərə görə üzr istəyirəm» eşitmək istəyir.

Üzr istəmək vacibdir. Həmçinin eyni səhvləri yenidən etməməklə bunu göstərmək də vacibdir.

Siz Allahdan etdiyiniz nəyəsə görə üzr istəmək istəyirsinizmi? O, sizi bağışlayacaq və bunu təkrar etməmək üçün sizə kömək edəcək.



**Dua**

*Sevimli Allah, mən səhvlər edəndə,*
*mənə «üzr istəyirəm» deməyə kömək et. İsanın*
*ismi ilə. Amin.*

# Qəbul etmək

Kimsə sizə hədiyyə verəndə siz onu rədd etmirsiniz. Siz hədiyyəni qəbul edirsiniz. İsa sizdən bu xilas hədiyyəsini qəbul etməyinizi istəyir. O, sizə indi və sabah bütün günü Onu məmnun salan işlər görməyə kömək edəcək. Həmçinin O, bir gün sizə Onunla göylərdə yaşamağa imkan verəcək.

Bizə hədiyyə verən insanlar bizim onları qəbul edib açmağımıza sevinirlər. Biz İsanın hədiyyəsini qəbul edəndə, O, da sevinir.

İsa istəyir ki, siz Onun hədiyyəsini qəbul edəsiniz. Bəlkə də siz bunu indi etmək istəyirsiniz. Siz dua edib Ona: «Bəli, Sənə minnətdaram, İsa» deyə bilərsiniz.



**Dua**

*Sevimli Allah, İsanı məni günahlarımdan azad etməyə göndərdiyin üçün Sənə minnətdaram. Mənə İsanı hədiyyə verdiyin üçün Sənə təşəkkür edirəm. Amin.*

# Etibar

Mən İsaya etibar etməliyəm. Əgər mən Ona etibar edirəmsə, bu o deməkdir ki, mən Onun Allahın Oğlu olduğuna iman edirəm. Mən əminəm ki, O məni sevir və mənim üçün çarmıxda öldü. Əgər mən İsaya etibar edirəmsə, bu o deməkdir ki, mən Onun qayğıma qaldığını və düz əməllər etməyə yardım etdiyini bilirəm.

Bu şəkildə Ceyhun kiməsə etibar etmədiyini deyir. Lakin onun dostu ona: «Sən İsaya etibar edə bilərsən!» deyir.

İsaya etibar etmək nə deməkdir?



**Dua**

*Sevimli İsa, mən iman edirəm ki,*
*Sən Allahın Oğlusan və mənim üçün ölmüsən.*
*Mənə kömək etmək üçün Sənə etibar edə*
*bildiyimə görə şadam. Amin.*

# Müqəddəs Ruh və Məsihçi həyatı

## Müqəddəs Ruh kimdir?

# Müqəddəs Ruh

İsadan bizim xilaskarımız olmasını xahiş edəndə, Müqəddəs Ruh gəlib bizdə yaşayır. Biz Müqəddəs Ruhu görə bilmirik, lakin O, həmişə bizimlədir. Bu üç şəxsiyyət bir Allahdır:

Ata Allah
Oğul Allah (İsa)
Allahın Müqəddəs Ruhu

Şəkildəki ana deyir: «Allahın Müqəddəs Ruhu indi bizimlədir.»

Siz bu sözləri deyə bilərsiniz: «Mən Ata Allah, Oğul Allah və Allahın Müqəddəs Ruhuna iman edirəm. Onların hamısı məni sevən bir Allahdır.»



**Dua**

*Sevimli Allah, Mən şadam ki, haraya gedirəmsə-gedim Müqəddəs Ruh mənimlədir. İsanın ismi ilə. Amin.*

# Məsləhətçi

Məsləhətçi müdrikdir. O, insanlara ən yaxşısını etməyə yol göstərir. Allahın Müqəddəs Ruhu İsaya iman edən hər kəsin xüsusi məsləhətçisidir. O, həmişə bizimlədir. O, bizə nəyin doğru, nəyin yanlış olduğunu göstərir.

Şəkildəki oğlanın məsləhətçisi — Müqəddəs Ruh vardır. Müqəddəs Ruh qıza bir konfet götürməyin səhv olduğunu bilməyə kömək edir.

Müqəddəs Ruh, sizin Məsləhətçiniz sizə nəyi göstərə bilər?



**Dua**

*Sevimli Allah, düzgün hərəkət etməyə yardım etmək üçün mənə Müqəddəs Ruhu göndərdiyinə görə Sənə təşəkkür edirəm. Amin.*

# Köməkçi

Allahın Müqəddəs Ruhu mənim xüsusi köməkçimdir. Mənə bütün pisliklərə qarşı durmağa kömək etmək üçün Onun qüdrəti vardır. Başqaları pis işlər edəndə, Müqəddəs Ruh mənə: «Xeyr, mən belə şeylər etmirəm» deməyə yardım edir.

Mən imkan verməliyəm ki, Müqəddəs Ruh mənim köməkçim olsun. O mənə yardım edir ki, düz əməllər edim və başqalarına kömək edim. Müqəddəs Ruh mənə düzgün olanı seçməkdə möhkəm olmağa kömək edir.

Müqəddəs Ruhun sizin köməkçiniz olmasına nə zaman ehtiyacınız olur?



## Dua

*Sevimli Rəbbim, bizə köməkçi kimi Müqəddəs Ruhu verdiyinə görə Sənə təşəkkür edirəm. Şadam ki, düz əməllər etmək üçün ondan kömək istəyə bilirəm!*

# Müqəddəs Ruh və Məsihçi həyatı

## Müqəddəs Ruhun mənə kömək etdiyini göstərdiyim yollar

# Sevgi

Siz kimisə sevəndə bu insanın qayğısına qalır və ona qarşı nə hiss etdiyinizi göstərməyə çalışırsınız. Müqəddəs Ruh sizə Allaha, ailənizə və başqalarına qarşı sevginizi göstərməyə kömək edir. O, sizə dediyiniz sözlər və etdiyiniz hərəkətlər vasitəsilə sevginizi göstərməyə yardım edir.

Müqəddəs Kitab bizə deyir: «sözdə və dildə deyil, əməldə və həqiqətdə sevək.» (1 Yəhya 3:18).

Siz Allaha sevginizi necə göstərirsiniz?



**Dua**

*Sevimli Allah, daha çox sevən olmağa kömək etmək üçün mənə Müqəddəs Ruh lazımdır. Dediyim sözlər və etdiyim hərəkətlər vasitəsilə sevgimi göstərməyə mənə kömək et. Amin.*

# Sevinc

Sevinc Müqəddəs Ruhdan gələn xüsusi bir xoşbəxtlikdir. Bu sadəcə xoşbəxt olmaqdan daha artıq bir şeydir. Siz hətta xəstə olanda belə sevincli ola bilərsiniz, çünki Allahın sizin qayğınıza qalacağını bilirsiniz. Hətta tək olanda da belə, sevinciniz ola bilər, çünki siz bilirsiniz ki, Allah həmişə sizinlədir və heç vaxt sizi tərk etməyəcək.

Xəstə olanda və ya cəza alanda xoşbəxt olmaq çətin ola bilər. Lakin Müqəddəs Ruh sizə getdikcə daha çox sevincdə olmağa kömək edəcək!

Siz həmişə sevincdə qala bilərsinizmi? Niyə?




**Dua**

*Bu sözləri dua kimi oxuyun: «Dərin bir sevinc, sevinc, sevinc, sevinc var ürəyimdə!» Allahım Sənə minnətdaram! Amin!*

# Sülh

Biz qorxanda Müqəddəs Ruh bizə kömək edə bilər ki, sülhümüz olsun. O bizə kömək edir ki, həmişə bizimlə olduğunu bilək. Əgər biz qaranlıqda və ya fırtınada, ya da naxoşluq və ya kədərdə dua etsək sülh tapa bilərik. Müqəddəs Ruh bizə kömək edir ki, biz qorxmayaq. Bizim həqiqi sülhümüz olacaq.

Müqəddəs Kitab deyir: «Əgər Müqəddəs Ruh sizin düşüncənizi idarə edirsə, onda həyat və sülh var» (Rom 8:6).

Fırtınalı gecədə qorxmamağı sınaqdan keçirin.



**Dua**

*Sevimli Allah, Mən fırtına zamanı qorxmuşdum. Xahiş edirəm, mənə Müqəddəs Ruhun sülhünü ver və həmişə yanımda olduğunu mənə xatırlat. Amin.*

# Səbir

Siz razılıqla gözləyəndə bu səbirdir. Bəlkə də siz öz növbənizi və ya başqalarının etdiyi işi bitirmələrini gözləməlisiniz. Allahın Müqəddəs Ruhu sizə səbirli olmağa yardım edəcək. O, gözləməli olduğunuz halda sizə məyus olmamağa kömək edəcək.

Bəzən gözləmək çox çətindir! Lakin əgər siz Müqəddəs Ruhdan diləsəniz sizə səbirli olmağa kömək edəcək. Hətta çox vaxt gözləməli olsanız belə, O, sizə kömək edəcək.

Siz kiməsə — dostunuz, qardaşınız və ya bacınıza — qarşı səbirli olmalısınızmı? Sizə kim kömək edə bilər?



**Dua**

*Rəbb, mən dua edirəm ki, nə vaxt dilxor olmağa başlasam, qoy Müqəddəs Ruh mənə səbir versin. Mənim qayğıma qaldığına görə Sənə minnətdaram. İsanın ismi ilə. Amin.*

# Xeyirxahlıq

Biz köməkçi və ya xeyirxah olanda bu xeyirxahlıq deməkdir. Biz öz ailəmiz və dostlarımıza gözəl sözlər deyəndə bu xeyirxahlıqdır. Biz bölüşəndə və insanları xoşbəxt edən işlər edəndə xeyirxah oluruq.

Kimisə pis adla çağırmaq yaxşı deyil. Dostunuza sizin oyuncaqlarınızla oynamamağını demək xeyirxahlıq deyil. Allah deyir: «Bir-birinizə qarşı xeyirxah olun» (Efeslilərə 4:32).

Siz dostunuza qarşı xeyirxahlığınızı necə göstərərsiniz? Siz heyvanlara da qarşı xeyirxah ola bilərsinizmi?



**Dua**

*Sevimli Allah, insanlar mənə qarşı xeyirxah olanda mənə xoşdur. Sənin dediyin kimi mənə həmişə xeyirxah olmağa kömək et. İsanın ismi ilə. Amin.*

# Yaxşılıq

Biz doğru və yaxşı əməllər edəndə bu yaxşılıqdır. Allah yaxşıdır. Biz Ona itaət edəndə, biz də yaxşı oluruq. Valideynlərimizin bizdən istədiyi kimi davrananda və onların dediklərini edəndə biz yaxşı oluruq. Allah bizə Müqəddəs Ruh verir ki, biz nəyin yaxşı, nəyin isə səhv olduğunu bilək.

Yaxşı olmaq həmişə asan olmaya bilər. Amma Allah deyir: «Yaxşılıqlar etməkdən yorulmayın» (Qalatiyalılara 6:9).

Nəyin yaxşı və nəyin düzgün olduğunu Allahdan soruşun.



**Dua**

*Sevimli Rəbb, nəyin yaxşı olduğunu seçmək üçün mənə Müqəddəs Ruh verdiyinə görə Sənə təşəkkür edirəm. İsanın ismi ilə. Amin.*

# Mülayimlik

Öz ev heyvanlarınız, dostlarınız, kiçik bacılarınız və ya qardaşlarınıza qarşı sərt olmamaq mülayimlikdir. Mülayimlik oyuncaqlarınızla qayğıkeş olmanız və onları sındırmadan yığışdırmaqdır. Müqəddəs Ruh sizə mülayim olmağa kömək edəcək.

Müqəddəs Kitab deyir ki, biz danışarkən də mülayim olmalıyıq (Süleymanın Məsəlləri 15:1).

Oyuncaqla necə mülayim rəftar etməyi göstərin.



**Dua**

*Rəbb, mənə oynayarkən mülayim olmağa yardım et. Həmçinin mülayimliklə danışmağa yardım et. Amin.*

# Müqəddəs Ruh və Məsihçi həyatı

## Hər yerdə Allahı razı salmağın yolları

# İtaət etmək

İtaət etmək bizə deyiləni etmək deməkdir. Bizi yaradan və bizim üçün ən yaxşısını bilən Allaha itaət etmək vacibdir. Allah bizə Onu və başqa insanları sevməyi tapşırır. Valideynlərə və müəllimlərə də itaət etmək vacibdir, çünki Allah istəyir ki, biz belə edək. O bilir ki, yaxşısı budur.

Sizin valideynləriniz sizə nəyin zərər gətirəcəyini bilirlər. Allahın sizin onlara itaət etməyinizi istədiyi səbəblərdən biri də budur. Allah ən yaxşısını bilir və ona görə də, biz həmişə Onun istədiyini etməliyik.

İtaət etmək çətindirmi? (Allaha deyin — O, sizə kömək edəcək.)



**Dua**

*Sevimli Allah, mən itaət etmək istəyirəm, amma bəzən sadəcə unuduram. Xahiş edirəm düzgün olanı etməyə mənə kömək et. İsanın ismi ilə. Amin.*

# Dua etmək

Biz dua edəndə Allahla danışırıq. O, həmişə bizə kömək edə bilər, çünki böyük və qüdrətlidir. Allah həm uşaqların, həm də yaşlıların Ona dua etməsini istəyir. O, istəyir ki, biz Onunla danışaq. Biz istənilən vaxtda və istənilən yerdə Ona istədiyimiz hər şeyi deyə bilərik.

Xoşladığınız bir adamla birlikdə vaxt keçirmək əyləncəlidir. Biz dua edərək Allahla vaxt keçirəndə O, sevinir (Süleymanın Məsəlləri 15:8).

Şəkildəki qız anası üçün dua etdiyi kimi siz də kiminsə üçün dua edə bilərsinizmi? O belə deyir: «Allah, xahiş edirəm, qoy anam özünü yaxşı hiss etsin.»



**Dua**

*Sevimli Allah, mən Səninlə danışmağı xoşlayıram. Mən Sənə _________ haqqında demək istəyirəm. Amin.*

# Həmd etmək

Biz Allahın nə qədər böyük olduğunu və nə qədər çox sevdiyimizi deyəndə Ona həmd edirik. Biz dua edərkən dediyimiz sözlərlə də Allaha həmd edirik. Biz, həmçinin oxuduğumuz mahnılarla da Allaha həmd edə bilərik.

İnsanlar sizə yaxşı sözlər deyəndə özünüzü yaxşı hiss edirsiniz, elə deyilmi?

Heç kim Allah kimi gözəl deyil. Ona görə
də Ona belə deməklə həmd etmək asan olar!
Dünyanın bütün uşaqları Ona həmd edin,
Ona həmd edin!



**Dua**

*Allah haqqında düşünün və deyin: «Göylərdə olan sevimli Ata, mən Sənə həmd edirəm, çünki Sən çox gözəl, müdrik və qüdrətlisən.»*

# Sağ ol

Biz hədiyyə alanda və ya kimsə bizə yaxşı bir şey edəndə biz sağ ol deyirik. Biz dua edəndə Allahın bizə verdiyi hər şeyə görə ona sağ ol deyə bilərik. Biz həmçinin Onun bizim üçün etdiyi bütün şeylərə görə Ona sağ ol deyə bilərik.

Biz hər gün Allaha sağ ol deməyi unutmamalıyıq. Müqəddəs Kitab deyir ki: «Etdiyi hər şeyə görə Ona həmd edin» (Filipililərə 4:6).

Siz şəkildəki qızın etdiyi kimi etmək istəyirsinizmi? O, Allaha nəyə görə sağ ol demək istəyirsə, onun şəklini çəkir. Siz, həmçinin Allaha nəyə görə sağ ol demək istədiyiniz şeylərin siyahısını tuta bilərsiniz. Onların adlarını çəkin və qoy kimsə sizin üçün onları yazsın.



## Dua

*Allahım, etdiyin hər şeyə görə çox sağ ol.*
*Allahım, yağışa və günəşə görə çox sağ ol.*
*Mən özümü pis aparsam da məni*
*sevdiyinə görə çox sağ ol.*
*Anama və atama görə çox sağ ol. Amin.*

# Bağışlamaq

Biz Allahdan etdiyimiz səhv hərəkətlərə görə bizi bağışlamasını və onları artıq etməmək üçün bizə kömək etməsini istəməliyik. Sonra O, bunlar haqqında unudacaq. Biz həmçinin bizə qarşı səhv hərəkətlər edən adamları da bağışlamalıyıq. Onda biz yenə də dost qala bilərik. Allah bizə kömək edəcək.

Allah Müqəddəs Kitabda bizə deyir: «Başqalarını bağışlasanız, siz də bağışlanacaqsınız» (Luka 6:37).

Elə bir şey etmisinizmi ki, Allah sizi bağışlamalıdır? Siz kimi bağışlamalısınız?



**Dua**

*Sevimli Allah, etdiyim səhv hərəkətlərə görə məni bağışladığın üçün çox sağ ol. Dostlarım mənə qarşı səhv edəndə onları bağışlamaq üçün mənə kömək et. İsanın ismi ilə. Amin.*

# Kömək

Biz insanlara kömək edəndə onların işini asanlaşdırmaq üçün əlimizdən gələni edirik. İsanı sevmək bizə başqalarına kömək etmək istəyi verir. Biz evdə kömək etmək üçün şikayət etmədən və mızıldanmadan əlimizdən gələni edə bilərik. Bəzən bizim dostlarımıza da kömək lazım olur. Biz köməkçi olaraq İsaya sevgimizi göstəririk.

Siz evdə kömək edəndə ananız və atanız sevinir. Allah da sevinir. Siz evdə, məktəbdə və ya harada olursunuzsa-olun insanlara kömək edəndə Allahın xoşuna gəlir.

Siz bu gün və ya sabah kimə kömək edə bilərsiniz?



**Dua**

*Rəbb, mən yaxşı köməkçi olmaq istəyirəm. Mən hər gün kiməsə kömək etməklə Səni sevindirmək istəyirəm. Amin.*

# Şahid

Şahid gördüyünü və ya eşitdiyini deyir. Hər hansı bir hadisəni öz gözləri ilə görən insanlara şahid deyirlər. Onlardan çox vaxt nə bildiklərini demək xahiş olunur.

Siz İsa haqqında çox şey bilirsiniz. Ona görə də, siz İsa haqqında başqalarına deməklə Onun şahidləri olursunuz.

İsanın dostlarınızı sevdiyini deməklə onlara şəhadət edin. Bunu etmək yollarından biri dostlarınıza öz Müqəddəs Kitab hekayələri kitabınızı göstərməkdir.



**Dua**

*Sevimli Allah, Sənin haqqında hər şeyi*
*dostlarıma deməyə mənə kömək ol.*
*Sənin üçün necə şahid olmağı mənə göstər.*
*İsanın ismi ilə. Amin.*

# İsanın cəmiyyəti

## İsanın cəmiyyəti haqqında sözlər

# İsanın cəmiyyəti

İsanı sevən insanlar Ona ibadət edir. Bəziləri böyük binalarda, evlərdə və ya başqa yerlərdə görüşür. Bizim ibadət etmək üçün görüşdüyümüz yer adətən İsanın cəmiyyəti adlanır. Biz Allah haqqında öyrənmək və ibadət etmək üçün İsanın cəmiyyətinə gedəndə O sevinir.

Bizim harada görüşməyimiz vacib deyil. Ən əsas odur ki, biz Allaha ibadət edirik.

İbadət etdiyiniz İsanın cəmiyyəti haqqında danışın.



**Dua**

*Rəbb, mənim getdiyim İsanın cəmiyyətinə görə Sənə minnətdaram. Mən orada Sənin haqqında öyrənirəm və dostlarımla yaxşı vaxt keçirirəm. Bu çox xüsusi bir yerdir. Amin.*

# İsanın cəmiyyəti

İsanın cəmiyyəti Allahın ailəsinə aid olan insanlardır. Allahın ailəsindəki insanlar Ona ibadət edəndə Allah sevinir.

Sizin xalalarınız, əmiləriniz, xala və ya əmi uşaqlarınız, nənə-babalarınız varmı? Böyük sevinc almaq üçün
ailəyə malik olmaq əyləncəlidir. İsanın cəmiyyəti də belədir. Müqəddəs Kitab deyir ki, İsa Öz cəmiyyətinin rəhbəridir (Kolosselilərə 1:18).

Siz İsanın cəmiyyətindən kimi tanıyırsınız?



## Dua

*Allah, cəmiyyətdəki dostlarıma görə*
*çox sağ ol. Biz bir-birimizi sevirik və hamımız*
*Səni sevirik! Amin.*

# Məsihçilər

İsa Məsihi sevən insanlar məsihçi adlanırlar. Bu sözün kökü «Məsih»dir. Bu da İsanın başqa bir adıdır. Bəzən biz bu iki adı birlikdə işlədirik. Əgər biz İsa Məsihə iman ediriksə, deyə bilərik ki, məsihçiyik.

Hamı məsihçi deyil, Müqəddəs Kitab bizə deyir ki, Məsihçi olmağın yolu İsaya iman etməkdir.

Məsihçi olmağın yeganə yolu İsaya iman etməkdirmi?



**Dua**

*Sevimli Allah, Mən iman edirəm ki,*
*İsa Məsih Sənin Oğlundur.*
*Mən Onu çox sevirəm. Minnətdaram ki,*
*mən məsihçi ola bilirəm. Amin.*

# Pastor

Cəmiyyətin pastoru bütün cəmiyyətə Müqəddəs Kitabı izah edir. Pastor, həmçinin insanlara baş çəkir və xəstələr üçün dua edir. Bəzən pastor xidmətçi adlanır.

Siz pastorunuzun adını bilirsinizmi? O, sizin adınızı bilirmi? Gələn dəfə onu cəmiyyətdə görəndə ona əl vermək istərdinizmi? Siz Onun üçün dua etdiyinizi də deyə bilərsiniz.



**Dua**

*Sevimli Allah, Mən şadam ki, Sən Pastor ________ bizim getdiyimiz Rəbbin cəmiyyətinə göndərmisən. Xahiş edirəm, Onu möhkəm saxla və Sənin haqqında bizi öyrətməkdə ona kömək et. İsanın ismi ilə. Amin.*

# Təbliğ

Təbliğ etmək insanlarla İsa haqqında danışmaq deməkdir. Bu, insanların necə yaşamasını İsanın istəməsi deməkdir. Hər kəsə İsanın Allahın Oğlu olduğunu və bizi sevdiyini bilmək vacibdir. İsaya necə itaət etməli olduqlarını bilmək insanlar üçün vacibdir. Pastor insanlara bu şeyləri bilməyə kömək etmək üçün Müqəddəs Kitabdan təbliğ edir.

İsa haqqında şəhadət edən hər kəs İsanın dediyini edir. O dedi: «Xoş Xəbəri hamıya, hər yerdə təbliğ edin» (Mark 16:15).

Sizin pastorunuz təbliğ edərkən hansı kitabdan istifadə edir?



**Dua**

*Sevimli Allah, İsa haqqında təbliğ edən*
*hər kəsə görə Sənə minnətdaram.*
*Bütün dünyada olan pastor və missionerlər üçün*
*Sənə minnətdaram. Amin.*

# Rəhbərlər

Hər cəmiyyətin rəhbərləri vardır. Bu cəmiyyət rəhbərləri cəmiyyətin işlərinə görə məsuliyyət daşıyırlar. Onlar insanlara düzgün işlər görməyi öyrədirlər. Onlar həmçinin cəmiyyətdə xüsusi ehtiyacları olan insanlara kömək edirlər.

Əgər siz getdiyiniz cəmiyyətdə heç bir rəhbər və ya müəllimlər olmasa nə baş verər? Ehtiyacı olan insanlara yemək aparan olmasa və ya İsanın cəmiyyətinin qayğısına qalan olmasa nə baş verər?

Ailənizdən İsanın cəmiyyətində olan bəzi rəhbərlər haqqında sizə danışmasını xahiş edin.



**Dua**

*Allahım, cəmiyyətimizdə olan bütün rəhbərlərə görə Sənə minnətdaram. Onlara yaxşı rəhbərlər olmağa kömək et. Amin.*

# İsanın cəmiyyəti

## Biz İsanın cəmiyyətində nə edirik

# İbadət

Biz Allaha ibadət edəndə Onun haqqında və bizim üçün etdiyi hər şeyi düşünürük. O bizə ailələrimizi, dostlarımızı və bizim ən yaxşı dostumuz olan İsanı verib. Biz: «İsa mən Səni sevirəm» deyəndə bu ibadətdir. İsanın cəmiyyətində Allaha ibadət etmək yaxşıdır.

Müqəddəs Kitabda deyilir: «Gəlin ibadət edək» (Zəbur 95:6). Biz Allaha ibadət edəndə O, razı qalır.

Biz Allaha ibadət edərkən kimin haqqında düşünürük?



**Dua**

*Sevimli Allah, mən şadam ki, Sənə İsanın cəmiyyəti ilə birlikdə ibadət edə bilirəm. Amin.*

# Dualar

Allaha ibadət etməyin bir yolu da birlikdə dua etməkdir. Bizim dualarımız, dua edərkən, yəni Allahla danışarkən dediyimiz sözlərdir. Biz Allahla hər şey haqqında danışa bilərik. Biz ona təşəkkür edə bilər, Onu sevdiyimizi deyə bilər və Ondan kömək istəyə bilərik.

İsanın cəmiyyəti ilə dua etmək Allaha xüsusi yolla ibadət etməkdir. Biz birlikdə dua edərkən, «bir-birimizlə çətinliklərimizi və problemlərimizi bölüşürük» (Qalatiyalılara 6:2).

Biz öz dualarımızla kimə müraciət edirik?



**Dua**

*Sevimli Allah, mən istənilən vaxt Səninlə danışa bildiyimə görə Sənə minnətdaram. Mən İsanı sevən başqa insanlarla birlikdə dua edə bildiyimə görə çox şadam. Amin.*

# Oxumaq

Biz birlikdə oxuyanda öz səslərimizlə gözəl bir musiqi düzəldirik. Bəzən insanlar birlikdə xor kimi oxuyurlar. Biz Allah haqqında və Onun üçün oxuyanda Ona ibadət edirik. O, bizim mahnılarımızı dinləməyi xoşlayır.

Müqəddəs Kitab deyir ki, Allaha oxuyanda sevinək. Orada deyilir: «Sevinclə oxuyaraq Onun qarşısına gəlin» (Zəbur 100:2).

İsa haqqında ən çox xoşladığınız mahnını oxuyun. Siz İsanın məhəbbəti haqqında ilahi bilirsinizmi?



## Dua

*Sevimli İsa, məni sevdiyinə görə çox sağ ol. Mən də Səni sevirəm. Səni daha da çox sevməyə kömək et. Amin.*

# İlahilər

Hamı birlikdə cəmiyyətdə oxuyanda biz çox vaxt ilahilər adlanan mahnılar oxuyuruq. Oxuduğumuz ilahilər bizə Allah haqqında düşünməyə kömək edir. Biz birlikdə ilahi oxuyarkən Allaha ibadət edirik. Biz başqa yerlərdə də Allaha ilahilər oxuyuruq. Biz istənilən vaxt və istənilən yerdə Allaha ilahilər oxuyaraq Ona ibadət edə bilərik.

Bəzi ilahiləri çox əvvəllər yaşamış insanlar yazıb. Onlar İsanı sevirdilər və bizə indi İsa üçün oxuya bildiyimiz mahnılar veriblər.

Siz İsanı sevən başqa insanlarla birlikdə ilahilər oxumağı xoşlayırsınızmı?



## Dua

*Rəbb, İsanın cəmiyyətində oxuduğumuz ilahilərə görə sənə minnətdaram. İnsanlar uzun illərdir ki, Səni sevirlər. Mən indi Səni sevirəm. İsanın ismi ilə. Amin.*

# İanə

Biz cəmiyyətdə ianə pullarımızı Allaha veririk. Biz ianə verəndə Allaha ibadət edirik. Bizə ailələrimizi, yeməyimizi, evlərimizi və malik olduğumuz hər şeyi Allah verir. Allaha sağ ol deməyin bir yolu da Onun işi üçün pulumuzun bir hissəsini verməkdir.

Müqəddəs Kitab deyir ki: «Allah sevinə-sevinə pay verən adamı sevir» (2 Korinflilərə 9:7).

Siz Allaha nə verə bilərsiniz? Ona öz sevginizi verə bilərsiniz. Bəlkə siz həmçinin yoxsul insanlara yemək və Allahın işi üçün pul verə bilərsiniz.



**Dua**

*Sevimli Allah, mənə verdiyin hər şeyə görə Sənə minnətdaram. Mən Sənə ianə verərək sevgimi göstərə bildiyimə görə minnətdaram. Amin.*

# Dinləmək

Biz Müqəddəs Kitabı dinləmək üçün qulaqlarımızı açanda Allaha ibadət edirik. Uşaqlar Müqəddəs Kitab hekayələrini dinləyirlər. Onlar müəllim sözləri izah edərkən dinləyirlər. Kimsə cəmiyyətdə Müqəddəs Kitabı oxuyanda yaşlılar və uşaqlar dinləyirlər. Onlar pastorun Müqəddəs Kitabı izah etməsini dinləyirlər.

Yaşlılar bu qədər şeyi necə öyrəniblər? Onlar dinləyiblər! Siz də belə edə bilərsiniz, xüsusilə də Rəbbin cəmiyyətində. Əgər dinləsəniz, Müqəddəs Kitabdan çox şey öyrənə bilərsiniz.

İndi dinləmək istədiyiniz Müqəddəs Kitab hekayəsi varmı?



**Dua**

*Rəbb, yerimdə tərpənməyi və səs salmağı xoşlayıram. Amma cəmiyyətdə də müəllimlərimi diqqətlə dinləmək üçün mənə kömək et. Amin.*

# Öyrənmək

Biz cəmiyyətdə Allah və Onun Oğlu, İsa haqqında öyrənirik. Biz Müqəddəs Kitaba qulaq asaraq öyrənirik. Biz nələrsə edərək öyrənirik. Biz bir yerdə oynayaraq da öyrənirik. İsanı sevən insanlar bir-birinə Onun haqqında hər şeyi öyrənməyə kömək edə bilərlər.

Sizə İsa haqqında öyrənməyə kim kömək edir? Müqəddəs Kitab hekayəsini xatırlamağa kömək edən bir hərəkətin adını çəkə bilərsinizmi? Sizə İsanın necə davranmanızı istədiyi haqda düşünməyə nə kömək edir?



**Dua**

*Sevimli Allah, müəllimimdən, pastorumdan*
*və cəmiyyətdəki bütün rəhbərlərdən*
*Sənin haqqında hər şeyi öyrənməyə kömək et.*
*Onlara görə çox sağol. Amin.*

# Vəftiz

Müqəddəs Kitab dövründə Vəftizçi Yəhya insanlara dedi ki, vəftiz olunsunlar. Bu şəkildə Yəhya İsanı bir çayda yenicə vəftiz edib. İsa şagirdlərinə dedi ki, insanları vəftiz etsinlər. İsa deyir ki, biz də vəftiz olunaq. Vəftiz başqalarına bizim İsaya aid olduğumuzu göstərir. Bu gün insanlar çox vaxt cəmiyyətdə vəftiz olunurlar.

Top oynayanlar forma geyinirlər ki, onların hansı komandaya aid olduqlarını insanlar bilsinlər. Vəftiz olmaq hamıya bizim İsanın ardınca getmək üçün seçilmiş olduğumuzu bilməyə imkan verən yoldur.

Bizim vəftizimiz başqalarına nə göstərir?




**Dua**

*Sevimli İsa, mən minnətdaram ki, Sənə aidəm. Vəftiz olaraq Sənə sevgimi göstərə bildiyimə görə minnətdaram. Amin.*

# Rəbbin Süfrəsi

Biz cəmiyyətdə Rəbbin Süfrəsini qəbul edirik. Rəbb İsanı sevənlər birlikdə çörək yeyir və bir kasadan içirlər. İsa çarmıxa çəkilməmişdən əvvəl şagirdləri ilə də belə etmişdi.

Bəlkə də, siz insanların nə üçün Rəbbin Süfrəsində bu qədər az yeyib-içdiklərinə təəccüb edirsiniz. Biz bu xüsusi yeməyi ac olduğumuza görə yemirik. Biz bunu edirik ki, İsanın bizim üçün öldüyünü xatırlayaq.

Biz Rəbbin Süfrəsində nəyi xatırlayırıq?



**Dua**

*Rəbb, mən şadam ki, biz cəmiyyətdə Rəbbin Süfrəsini qəbul edirik. Bu mənə Sənin çarmıxda öldüyün haqqında düşünməyə kömək edir. Məni bu qədər sevdiyinə görə Sənə minnətdaram. Amin.*

# Ünsiyyət

İsanı sevən insanlar bir-biri ilə ünsiyyətdə olmağı xoşlayırlar. Bu o deməkdir ki, onlar birlikdə olmağı xoşlayırlar. Onların hamısının ən yaxşı dostu İsa olduğuna görə bir-biri ilə yaxın dost olmağı xoşlayırlar. Məsihçilər ünsiyyət quranda onlar adətən, birlikdə yemək yeyir və əylənirlər.

İsa göylərə qayıdandan sonra, Onun dostları birlikdə olmağı xoşlayırdılar. Onlar «böyük sevinclə yeməklərini bölüşürdülər» (Həvarilərin İşləri 2:46).

Məsihçi ailələri birlikdə yığışanda nə cür əyləncəli şeylər edirlər?



**Dua**

*Sevimli Rəbb, mən İsanın cəmiyyəti ilə birlikdə keçirdiyim sevincli vaxtlara görə Sənə minnətdaram. Onlar məni sevirlər və mən də onları sevirəm! Mən İsanın ismi ilə Sənə minnətdaram. Amin.*

# Sözlərin əlifba sırası ilə siyahısı


Allah *10*
Axur *106*

Bağışlamaq *152*
Bağışlamaq *202*
Balıqlar *70*
Bet-Lexem *102*
Bitkilər *68*

Çarmıx *130*
Çobanlar *100*

Dinləmək *234*
Diri *136*
Dua etmək *196*
Dualar *226*

Eden Bağı *78*
Etibar *166*

Əbədi *18*
Əbədi Həyat *156*
Əhdi-Cədid *40*
Əhdi-Ətiq *38*
Əmrlər *24*

Göylər *138*
Günah *150*

Hekayələr *28*
Heyvanlar *74*
Həqiqət *12*
Həmd etmək *198*
Hər yerdədir *60*

Xeyirxahlıq *186*
Xilas *144*
Xilas etmək *146*
Xilaskar *92*

İanə *232*
İbadət *224*
İlahilər *230*
İlahiyyatçılar *14*
İman *154*
İnanmaq *160*
İnsanlar *76*
İsa *90*
İsanın Cəmiyyəti *210*
İsanın Cəmiyyəti *212*
İtaət etmək *194*

Kəlam *4*
Kömək *204*
Köməkçi *174*

Qayıdış *140*
Qəbul etmək *164*
Quşlar *72*
Qüdrətli *54*

Məbəd *116*
Məktublar *36*
Mələklər *84*
Məsihçilər *214*
Məsləhətçi *172*
Məzar *132*
Möcüzələr *120*
Müdrik *58*
Müdrik adamlar *108*
Müjdələr *34*
Mülayimlik *190*
Müqəddəs *56*
Müqəddəs Kitab *2*
Müqəddəs Ruh *170*
Müqəddəs Yazı *6*
Müəllim *96*

Nazaret *112*
Nümunə *126*

Oxumaq *228*
Öyrənmək *236*

Pastor *216*
Peyğəmbərlik *32*

Rəbb *94*
Rəbbin Süfrəsi *240*
Rəhbərlər *220*

Sağ ol *200*
Sevən *52*
Sevgi *178*
Sevinc *180*
Səbir *184*
Səma *66*
Səmavi Ata *46*
Sinaqoq *114*
Sülh *182*

Şagirdlər *124*
Şahid *206*
Şeytan *86*
Şər *148*

Tarix *22*
Təbliğ *218*
Tövlə *104*
Tumarlar *16*

Ünsiyyət *242*
Üzr istəmək *162*

Vədlər *26*
Vəftiz *238*

Yaxşı *50*
Yaxşı *80*
Yaxşı Çoban *122*
Yaxşılıq *188*
Yaradan *44*
Yer kürəsi *64*
Yerusəlim *118*

Zəbur *30*

# Müqəddəs Kitabı anlamağın əsasını qoyun!

Uşaqlar yeni sözlər öyrənməyi xoşlayırlar. *Mənim İlk Müqəddəs Kitab Sözlərim* kitabı ilə uşaqlarınız bütün dövrlərin ən böyük Kitabı olan Müqəddəs Kitabdan 100-dən artıq söz öyrənəcək!
*Mənim İlk Müqəddəs Kitab Sözlərim* sadə və asan başa düşülərək, uşağınıza Müqəddəs Yazını və Məsihçi imanını aydın başa salan vacib Müqəddəs Kitab həqiqətlərini təqdim edir. Hətta böyük yaşlı uşaqlar da özləri bu vəsaiti oxuyarkən zövq alacaqlar! Hər bir şərhə aşağıdakılar daxildir:

- Vəsait Müqəddəs Kitaba aid sözlərə əsaslanır
- Bir əyləncəli məşğələ – məsələn, mahnı oxumaq və ya xeyirxah iş görmək
- Gözəl rəngarəng şəkillər

*Mənim İlk Müqəddəs Kitab Sözlərim* bir ailə kimi oxumaq üçün mükəmməl olaraq, *Mənim İlk Müqəddəs Kitab Kitabxanamda* sonuncu sərlövhədir. Əgər sizin və uşağınızın *Mənim İlk Şəkilli Müqəddəs Kitabım* kitabından xoşunuz gəldisə, *Mənim İlk Müqəddəs Kitab Sözlərim* kitabından da xoşunuz gələcək!